www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu   Gündəlik qəzet   1-2 noyabr 2014-cü il   Şənbə   № 269 (5978)   Qiymәti 40 qәpik


**Xəbər**

## ""ASAN xidmət"in Sumqayıt bölməsinin rəhbəri sələfidir"

yazısı səh.12-də

**Gündəm**

### Elşad Abdullayevdən yeni, sensasion müsahibə



"Sevinc Babayeva deyirdi, mən MTN mayoruyam, məndə də səs yazıları var"

yazısı səh.6-da

### Mükafatlandırılan icra başçıları haqda bilmədiklərimiz - şok təfərrüatlar

yazısı səh.4-də

### Müxalifət iqtidarın elektroşokundan qorxurmu?

yazısı səh.10-da

### Burkina Fasoda çevriliş - prezident postundan getdi

yazısı səh.2-də

### Türk əsilli Almaniya vətəndaşının Azərbaycanda üzləşdiyi rəzalət

yazısı səh.15-də

### "Şakro" "Ded Xasan"ın məzarı üstə and içdi

yazısı səh.13-də

### Rusiyada məşhur azərbaycanlının evindən yarım milyard dollarlıq heroin çıxdı

yazısı səh.2-də

### AFFA-nın sabiq prezidentindən şok açıqlamalar

yazısı səh.15-də

### "Qasid" müflis oldu - yayım şirkətinin fəaliyyəti dayandırıldı

yazısı səh.2-də

### Aşura gününün əməlləri

yazısı səh.12-də

### Deputat-oliqarxın 1 milyon manatını oğurlayan adam məhkəmə qarşısında

yazısı səh.13-də

### QAT üzvləri BMT-nin Bakı ofisinin qarşısında toplaşdılar

yazısı səh.12-də

## Azərbaycanda görünməmiş hadisə

# İCRA BAŞÇILARI NAZİRİN VERDİYİ ƏMRİ GERİ OXUTDURDULAR - NONSENS

"Rayon təhsil şöbələrinin ləğvi və Regional Təhsil İdarələrinin yaradılması barədə qərarın təxirə salınmasının ilginc səbəbləri; Təhsil şöbələrinə "yağlı tikə" kimi baxan yerli məmurlar şok direniş göstərib və 15 dekabrda icra olunacaq təhsil islahatını tormozlayıb




yazısı səh.10-da

## İki dəfə yandırılan ticarət mərkəzinin əsl sahibi üzə çıxdı - Ziya Məmmədov...

Sumqayıtdakı "Karvan" nəqliyyat nazirinin imiş; Ağamirzə Əhədov bazarın "faizli xozeyni"dir; "Nəqliyyat nazirinin obyektini ard-arda yandırmaqla ona göz dağı verirlər"

yazısı səh.4-də



*İlham Rəhimov:*

### "Putinin sağlamlığına çox adam həsəd apara bilər"

yazısı səh.9-da



*Arif Hacılı:*

### "Onlar nüfuzdan düşəcəklər"

yazısı səh.5-də



### Çingiz Qənizadə Şeyxülislamı qorumağa çağırdı

yazısı səh.3-də

# 1-2 noyabr 2014



**Müsavat Partiyasının başqanı Arif Hacılı partiya üzvü Haqverdi Haqverdilini 70 illik yubileyi münasibətilə təbrik edib. Təbrikdə deyilir:**

**"Hörmətli Haqverdi bəy!**

**Sizi 70 illik yubileyiniz münasibəti ilə təbrik edir, Sizə uzun ömür, möhkəm can sağlığı, işlərinizdə uğurlar və Qarabağı azad görməyi arzulayıram.**

**1988-ci ildə başlayan milli-azadlıq mübarizəsinə qoşularaq xalqın haqq səsini müdafiə edən Siz, 03.06.1996-cı ildə Müsavat Partiyasının üzvü olduğunuz gündən partiyanın tapşırıq və qərarlarının icrasında, Müsavat ideologiyasının təbliğində və fəaliyyətinin genişləndirilməsində fəallıq göstərirsiniz. Siz Partiyanın Ağdam rayon təşkilatında tutduğunuz vəzifələri həmişə yüksək məsuliyyətlə icra etmiş, təşkilatın idarə olunmasında bütün bacarıq və gücünüzü sərf etmisiniz. Partiyanın bütün kütləvi tədbirlərinin, mitinq və piketlərin mütəmadi iştirakçısısınız. Partiyanın iştirak etdiyi bütün seçkilərdə saxtakarlıqların qarşısının alınmasında mübarizlik göstərmisiniz. 2003-cü il Prezident seçkiləri və sonrakı seçkilər zamanı baş verən proseslərdə üzləşdiyiniz təzyiqlər zamanı nümayiş etdirdiyiniz cəsarət və əqidəyə sədaqətiniz xüsusilə təqdirəlayiqdir. Bu proseslər zamanı rejimin təqib və təzyiqləri Sizi haqq yolundan sapdıra bilməyib. Siz bu gün rayon təşkilatının sədri olaraq partiyadaşlarımızla çiyin-çiyinə azad, ədalətli və demokratik hüquqi cəmiyyət quruculuğu, eləcə də işğal altında olan torpaqlarımızın azad olunması uğrunda mübarizənizi davam etdirirsiniz. Fəal həyat mövqeyiniz, işgüzarlığınız, prinsipiallığınız, səmimiyyətiniz və təvazökarlığınız partiyadaşlarımız və ictimaiyyət arasında Sizə böyük nüfuz qazandırıb. Əminəm ki, Sizi tanıyan ağdamlılar apardığınız mübarizənin müsbət sonluqla yekunlaşacağına inanır, övladlarınız isə hər zaman Sizin kimi əqidəli bir müsavatçının övladları olmaları ilə qürur duyur və iftixar hissi keçirirlər.**

**Hörmətli Haqverdi bəy!**

**Sizi bir daha yubileyinizlə əlaqədar ürəkdən təbrik edir, apardığımız bu müqəddəs mübarizədə uğurlar və doğma Ağdam torpağında xoş günlər keçirməyinizi arzulayıram."**



# Bakı Metropoliteninin rəsmisi yeni fransız vaqonlarından danışdı

**"Avtovağzal-Memar Əcəmi-2" stansiyaları üçün 15 vaqon gətiriləcək. Axar.az-a bu məlumatı "Bakı Metropoliteni" QSC-nin mətbuat xidməti və ictimaiyyətlə əlaqələr şöbəsinin rəisi Nəsimi Paşayev verib.**

Sərnişinləri narahat edən qiymət məsələsinə də aydınlıq gətirən Nəsimi bəy bildirdi ki, yeni vaqonlar gətirilsə də, hələlik qiymət dəyişikliyi gözlənilmir:

"İlkin olaraq "Avtovağzal-Memar Əcəmi-2" stansiyaları üçün 15 vaqon gətiriləcək, stansiya açılanda ilk o qatarlar hərəkət edəcək".

Xatırladaq ki, 2015-ci ildə təhvil veriləcək yeni Bənövşəyi xətdə "Avtovağzal-Memar Əcəmi-2" stansiyaları arasında 5 vaqondan ibarət 3 qatarın məkik hərəkət qrafiki üzrə hərəkətin təşkili nəzərdə tutulur.

Bunun üçün "Alstom" və Rusiya Federasiyasının müştərək istehsal etdiyi 81-760-761A tipli vaqonların (təqdim olunan fotolardan görünür ki, bu tipli vaqonlardan bir-birinə birbaşa keçid imkanı nəzərdə tutulub - red.) alınması nəzərdə tutulub.

"Elm" tədris mərkəzi
MAGIC LANGUAGES
➔ Ali məktəblər xarici dillər
➔ kompyuter kursları
➔ Magistratura - dövlət qulluğu - məntiq
➔ 1.C. mühasibat - anbar - bank işi
➔ Məktəbə qədər həftədə 5 dəfə
➔ Sürücülük kursları (1 aya 100 AZN)
Ünvan: 1. «Neftçilər» metrosu 40 mert. R.Rüstəmov-44
Tel:/Faks: (012) 421-10-46; 408-44-43;
Mob: (055) 660-60-95; (050)203-55-95
Ünvan: 2. «İnşaatçılar» metrosu 60 metr. «İran» klinikasının yanı
Tel:/Faks: (012) 434-88-28; 408-44-74;
Mob: (055) 660-07-05

# QHT-lərin bank hesabına qoyulan həbs hələ də davam edir

**Avqust ayının əvvəllərində hökumətin qərarı ilə xaricdən qrant alan bir çox QHT-lərin bank hesabına həbs qoyuldu. Bu QHT-lərdən bəziləri qərarla bağlı məhkəməyə müraciət etsələr də, vəsatətləri təmin olunmadı.**

Artıq 3 aydır ki, araşdırmalar davam edir. Bəs, görəsən, QHT-lərin hesabları üzərinə qoyulan həbs qaldırılıbmı?

Musavat.com bu sualla hesabı dondurulan bir neçə QHT rəhbərinə müraciət edib.

İctimai Təşəbbüslər Mərkəzinin rəhbəri Qubad İbadoğlu bildirdi ki, bu məsələdə hələlik hər hansı dəyişiklik yoxdur: "Bu istiqamətdə heç bir dəyişiklik yoxdur, həm şəxsi hesablarımıza, həm də təşkilatın hesablarına qoyulan həbs hələ də qalır. Bizdə olan məlumata görə, araşdırmalar davam edir və hələ istintaq yekunlaşmayıb. Dindirmələr aparılır, mühasibatlıq sənədlərinə baxılır".

"Demokratiya və İnsan Hüquqları Resurs Mərkəzi"nin rəhbəri Əsabəli Mustafayev də bank hesabına qoyulan həbsin davam etdiyini bildirdi: "Hesabına həbs qoyulan bütün QHT-lərlə bağlı araşdırma aparılır. Nəticənin nə olacağı bizə məlum deyil. Bizə hələlik hər hansı irad bildirilməyib. Biz bununla bağlı məhkəməyə müraciət etmişdik. Lakin vəsatətimiz təmin olunmadı.



Deyilib ki, araşdırma gedir. Bizə xəbərdarlıq edilib ki, istintaq yekunlaşana qədər bu haqda detalları danışmayaq. Bu səbəbdən də daha çox məlumat verə bilmərik".

"Azad İqtisadiyyata Yardım" İctimai Birliyinin sədri Zöhrab İsmayıl da bank hesabına qoyulan həbsin qaldırılmadığını dedi: "Həbs məhkəmə qərarı ilə qoyulub və onun kiminsə sözü ilə götürülməsi mümkün deyil. Həbs qalır və bununla bağlı heç kimlə danışıq aparmırıq. Apellyasiya Məhkəməsinə şikayət vermişdik, təmin edilmədi. Tamamilə qanunsuz və əsassız bir həbsdir. Növbəti ünvanımız Avropa İnsan Haqları Məhkəməsidir".

Neftçilərin Hüquqlarının Müdafiə Komitəsinin sədri Mirvari Qəhrəmanlı isə 3 ay ərzində heç bir QHT-nin bank hesabının açılmadığını vurğuladı: "Bir neçə QHT-yə cərimə tətbiq olunub. Onların adını deməyə mənim ixtiyarım yoxdur, bu istintaq məsələsidir. QHT-lərin layihələrinin araşdırılması davam edir".

❑ **Nərgiz LİFTİYEVA**

# Rusiyada məşhur azərbaycanlının evindən yarım milyard dollarlıq heroin çıxdı

**Rusiya mənbələri evindən yarım milyard dollarlıq təmiz heroin tapılan keçmiş bakılı KVN-çinin adını redaktə edib.**

Virtualaz.org saytı xəbər verir ki, bundan əvvəl Narkotiklərə Nəzarət üzrə Federal Xidmətin direktoru, general Viktor İvanov həmin şəxsin adının "İldar Nurimanov" olduğunu açıqlamışdı. Bildirilirdi ki, Əfqanıstandan gətirilən 174 kiloqram təmiz heroin onun Moskva ətrafındakı Domodedovo rayonundakı villasında tapılıb. Əməliyyat zamanı villanın mühafizəçiləri də daxil olmaqla narkobandanın 6 üzvü tutulub.

Lakin belə görünür ki, Rusiya KİV-ləri Viktor İvanovun bəyanatını yayarkən tələskənliyə və səhvə yol veriblər. Çünki yeni məlumatlarda evindən 500 milyon dollarlıq heroin tapılan azərbaycanlının adının İlqar Nazim oğlu İmanov olduğu göstərilir.

Narkotiklərə Nəzarət üzrə Federal Xidmətin Moskva vilayəti üzrə idarəsinin rəisi Vasili Yurçenko bildirib ki, o, kifayət qədər parlaq şəxsdir: "Mən hesab edirəm ki, o, parlaq şəxsiyyətdir. Hazırda o, banklardan birinin təsisçisidir, həmçinin ərzaq mallarının paylanması işi ilə məşğul olan ASC-lərdən biri onun adınadır".

Narkotikin tapıldığı villa 17 sot torpaq sahəsində yerləşir və üçmərtəbəli malikanədən, mühafizəçilər üçün ikimərtəbəli evdən ibarətdir. Heroin də məhz mühafizəçilər üçün nəzərdə tutulan evdə tapılıb.

Virtualaz.org saytı "Parni iz Baku"nun üzvləri ilə əlaqə saxlamağa və İlqar Nazim oğlu İmanov adlı şəxsi tanıyıb-tanımadıqlarını dəqiqləşdirməyə çalışıb. Qeyd edək ki, komandanın iki məşhur üzvü - Cabir və Tahir İmanovlar da bu familiyanı daşıyır.

**T.İmanov deyib ki, KVN komandasında İlqar İmanov adlı şəxs olmayıb:** "Ümumiyyətlə, KVN-in adının belə məsələlərdə hallandırılmasından təəssüf edir və bunu pisləyirik. Bu, bizim komandanın adına ləkə gətirir".

Moskva vilayətində evlərin birində aşkar edilən 174 kq narkotik vasitə ilə bağlı adı hallanan İlqar İmanov açıqlama verib. Az-News.az xəbər verir ki, hazırda Türkiyədə olan İlqar İmanov istintaqa ifadə vermək üçün yaxın vaxtlarda Moskvaya gələcəyini deyib.

İ.İmanov heç vaxt "Bakılı oğlanlar" klubunun üzvü olmadığını da vurğulayıb.



# Burkina Fasoda çevriliş - prezident postundan getdi

**Qərbi Afrika ölkəsi Burkina Fasoda prezidentin səlahiyyətlərini uzatmaq məqsədilə referendum keçirməsi inqilabla nəticələnib. Ölkə parlamentinin prezident Blaise Kompaorenin səlahiyyət müddətinin uzadılmasını nəzərdə tutan qanun layihəsini referenduma çıxarması ölkədə etirazlara səbəb olub.**

Etiraz aksiyalarına başlayan müxalifət tərəfdarları 1987-ci ildən ölkəni idarə edən Kompaorenin yenidən namizəd olmasına qarşı şüarlar səsləndirib. Qeyd edək ki, 27 ildir hakimiyyətdə olan prezidentin səlahiyyət müddəti gələn il başa çatır, ancaq yeni qanun dəyişikliyi qəbul olunacağı təqdirdə Kompaorenin daha 15 il hakimiyyətdə qalmasına yol açılır. 1987-ci ildə hakimiyyətə gələn hazırkı prezident, 63 yaşlı Kompaore 1992-ci ildə çevriliş edərək hakimiyyəti mənimsəyib. Bundan başqa Burkino Fasoda 1997 və 2000-ci ildə həyata keçirilən konstitusiya dəyişikliyi ilə səlahiyyət müddətini uzadıb.

Gələn il noyabr ayında səlahiyyət müddəti bitəcək prezident isə deyib ki, etirazlara baxmayaraq vəzifəsində, səlahiyyət müddəti bitənə qədər qalacaq. Müxalifət isə bununla razı deyil və prezidentin istefasını tələb edir, artıq ölkə parlamentinin binası etirazçıların əlinə keçərək dağıdılıb. Baş qərargah rəisi, general Honore Traore bütün tərəfləri əhatə edən danışıqlar vasitəsilə keçici hökumətin qurulacağını bəyan edib. Eyni zamanda general parlamentin də buraxıldığını bildirib.

Qeyd edək ki, dövlət başçısı etirazlar başladıqdan sonra hökuməti buraxıb, ardınca isə ordu ölkə Milli Məclisinin buraxıldığını bəyan edib. Eyni zamanda ordu komendant saatı elan edib, keçid hökumətinin hakimiyyəti ələ alacağını elan edib. Hələlik bu qərardan sonra yoxa çıxan prezidentin harada olduğu bilinmir. Bu arada məlum olub ki, BMT baş katibinin Qərbi Afrika üzrə xüsusi təmsilçisi Məhəmməd ibn Çambas münaqişənin həli ilə bağlı danışıqlar aparmaq məqsədi ilə Burkina Fasoya səfər edəcək. Qeyd edək ki, 1960-cı ildə Fransanın müstəmləkə əsarətindən azad olaraq müstəqil dövlət olan Burkina Fasoda bu günə qədər 5 dəfə çevriliş olub.

Axşama yaxın isə Burkina-Faso prezidenti Blaise Kompaore postunu tərk edib.

Ordunun rəsmisi Baş Qərargahın qarşısına toplaşan nümayişçilərə Kompaorenin artıq hakimiyyətdə olmadığını bəyan edib.

❑ **Kənan RÖVŞƏNOĞLU**

# Qasid müflis oldu - fəaliyyət dayandırıldı

**Qasid firması müflis olub və artıq qəzetlərin bu şəbəkə vasitəsi ilə pərakəndə satışı dayandırılıb. Bu barədə musavat.com-a "Yeni Müsavat" qəzetinin yayım direktoru Abbas İsmayılov məlumat verib. O, deyib ki, artıq 1 noyabrdan etibarən «Qasid» firması "Yeni Müsavat" qəzeti yayımı üçün götürməyəcək: "Buna səbəbi firmanın müflis olması və redaksiyalara satılan qəzet nüsxələrinə görə pul ödəyə bilməməsidir. Bizə rəsmən bildirdilər ki, yalnız abunələr üçün qəzet nüsxələri götürüləcək. Pərakəndə satış dururulur". A. İsmayılov bildirir ki, baş verən hadisə "Yeni Müsavat" qəzeti üçün növbəti tiraj və maliyyə itkisidir: "Bu firmada böyük məbləğdə pulumuz qalıb. Üstəlik, yenidən tiraj itirdik. Qəzetlər üçün çox ağır bir dönəm davam edir. Bütün bunlar onu göstərir ki, yaxın gələcəkdə çap mediasına aid KİV-lərin əksəriyyəti öz fəaliyyətlərini dayandıracaq".**

Baş verən hadisə ilə bağlı «Qasid» firmasının da rəsmi mövqeyini dərc etməyə çalışacağıq.

❑ **Musavat.com**



# Ərdoğanla Olland Qarabağı müzakirə etdi

**Türkiyə və Fransa Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizamlanması məsələsini müzakirə ediblər.**

"Trend"in "TRT Haber" telakanalına istinadən verdiyi məlumata görə, bunu cümə günü Parisdə Fransa prezidenti Fransua Olland türkiyəli həmkarı Rəcəb Tayyib Ərdoğanla birgə keçirdiyi mətbuat konfransında deyib.

Tərəflər, həmçinin ATƏT-in Minsk Qrupunun münaqişənin nizamlanması üzrə fəaliyyətini müzakirə ediblər.

# Hafiz Məmmədovu "diríldirlər"

## "Hafka"nın əlindən alınan bankı özünə qaytarıldı

**Bir müddət əvvəl müflis olduğu və hakimiyyət tərəfindən vurulduğu bildirilən "Hafka" ləqəbli iş adamı Hafiz Məmmədov biznesini yenidən dirçəltmək üzrədir. "Yeni Müsavat"a daxil olan məlumata görə, artıq H.Məmmədov yenidən bir müddət əvvəl əlindən alınan "Bank of Azerbaijan"a sahib çıxa bilib. Məlumata görə, H.Məmmədov bu bankın rəhbərliyinə qayıdıb. Qeyd edək ki, bir neçə ay əvvəl "Bank of Azerbaijan" ASC-nin səhmdarlarının növbədənkənar ümumi yığıncağında bankın İdarə Heyəti və Müşahidə Şurasının yeni tərkibi müəyyənləşdirilmişdi. Səhmdarların yığıncağının qərarı ilə H.Məmmədov bankın Müşahidə Şurasının rəhbərliyindən kənarlaşdırılmışdı.**

Mərkəz Bank "Bank of Azerbaijan"da maliyyə çətinlikləri ilə əlaqədar bankın lisenziyasının etibarlılığını məhdudlaşdırmışdı və bankın əmanətlər cəlb etməyə icazəsi yox idi.

Qeyd edək ki, H. Məmmədovun maliyyə problemlərinə görə, Azərbaycanda bir sıra layihələrinin dayandığı bildirilirdi. "Hafka" həmçinin bir müddət əvvəl aldığı Fransanın "Lans" və İngiltərənin "Şeffild Uensdey" futbol klubları ilə maliyyə problemləri yaşayırdı.

İndi onun bankının özünə qaytarılması onu deməyə əsas verir ki, hakimiyyətdə hansısa qüvvələr "Hafka"nın sıradan çıxarılmasını istəmirlər və onu "dirildirlər".

❑ **T.HƏSƏNLİ**

YENİ MÜSAVAT
N 269 (5978) 1 noyabr 2014



**Yazarımız Tofiq Yaqubluya Azadlıq!**

# Çingiz Qənizadə Şeyxülislamı qorumağa çağırdı

## "Hacı Qalibin ifadələrinin, fikirlərinin Şeyxlə eyniləşdirilməsinin, ümumilikdə "Administrasiya-Şeyx qarşıdurması" kimi fikirlərin yayılmasının mən qəti əleyhinəyəm"

**Milli Məclisin YAP-dan olan deputatı Hacı Qalib Salahzadənin parlamentin son plenar iclasındakı çıxışı geniş rezonans doğurub. Deputatın bələdiyyə seçkilərinin nəticələrinin indidən məlum olduğunu deməsinin, həmçinin kadr problemi ilə bağlı Administrasiya rəhbərinin dediklərindən fərqli mövqe sərgiləməsinin arxasında gizli mətləblərin dayandığı haqda ehtimallar səslənir.**

Düzdür, Hacı Qalib qəzetimizə son müsahibəsində bu barədə iddiaları təkzib edib və hakimiyyətin kursundan kənar hansısa mövqeyə sahib olmadığını, üstəlik PA rəhbəri cənab Ramiz Mehdiyevin fikirlərinə münasibət bildirmək cəsarətinə malik olmadığı barədə etiraflarını edib. Ancaq yenə də iddialar səslənir ki, ortada "Şeyxülislam-Administrasiya konflikti" var ki, Hacı Qalib Salahzadə də qudası olan Şeyx həzrətlərinin mövqeyini ifadə edib.

*Doğrudanmı Şeyx mərkəzi hakimiyyətə qarşı çıxış edir və etirazını qudası vasitəsilə ifadə edir? Yox, əgər belə deyilsə, onda Hacı Qalib artıq neçənci dəfədir, niyə Şeyxi pis vəziyyətə qoyur?*

Bu suallarla müraciət etdiyimi deputat Çingiz Qənizadə məsələyə fərqli mövqedən yanaşmağa çağırdı: "Şeyxülislam Hacı Allahşükür Paşazadə bütün Qafqazın şeyxidir və dünyada tanınmış insandır.





Biz bu cür adamları qorumaqdansa, nə vaxtsa ona salam verən şəxsin hərəkətini də gətirib onunla eyniləşdiririk. Bizim Konstitusiyamızda müəyyən olunub ki, kəs öz əməlinə görə məsuliyyət daşıyır. Hacı Qalibin ifadələrinin, fikirlərinin Şeyxlə eyniləşdirilməsinin, ümumilikdə "Administrasiya-Şeyx qarşıdurması" kimi fikirlərin yayılmasının mən qəti əleyhinəyəm".

**Ç.Qənizadə bildirdi ki, Hacı Qalibin parlament tribunasından o cür çıxış etməsini təqdirəlayiq hesab etmək olmazdı və düzgün çıxış deyildi:** "Ona da orda cavab verildi və məsələyə nöqtə qoyulmalı idi. Amma sonrakı günlər müzakirələr fərqli istiqamətdə davam etdi. Düzdür, orda seçki sistemi ilə bağlı müəyyən çalarlar var, bundan yazılırsa, bu, mətbuatın haqqıdır, özü bilər. Amma çox təəssüf edirəm ki, bəzi mətbuat orqanlarında Hacı Qaliblə Şeyxin fotoları yanaşı qoyulub və müxtəlif fərziyyələr əsasında bu məsələ Şeyxin özünə qarşı yönəldilir. Əksinə, orda Hacı Qalibdən daha çox Şeyxə qarşı hansısa qərəzi, hücumu görürəm. Düzdür, mən inanmıram ki, Şeyx bu cür məsələlərə əhəmiyyət verir. Amma biz millət vəkiliyik, ictimai-siyasi insanlarıq. Biz yaxşımızı qorumağı bacarmalıyıq".

**Deputat Ç.Qənizadə onu da qeyd etdi ki, Q.Salahzadənin dedikləri onun şəxsi fikridir:** "Çox istərdim ki, mənim mətbuatdakı dostlarım, qəzetlər, saytlar bu çıxışa istinad edib Hacı Qaliblə Şeyxin mövqeyinin eyni olması, Administrasiya ilə Şeyx arasında hansısa bir gizli savaşın getməsi haqqında fikirlərə ümumiyyətlə, yer verməsinlər. Mən bu cür fikirlərin, bu cür yanaşmanın, bu cür eyniləşmənin tərəfdarı deyiləm. Bir daha deyirəm ki, yaxşımızı qorumalıyıq. Şeyximizin sözü təkcə Azərbaycanda, ya Qafqazda deyil, bütün İslam dünyasında, hətta xristian dünyasında da qəbul olunursa və o, dövlətimiz, xalqımız üçün faydalı işləri görməyi bacarırsa, biz onu qorumalıyıq".

❑ **E.PAŞASOY**

# Avropadan Müsavat Partiyası ilə bağlı həyəcan təbili

**Mühacirətdə yaşayan siyasi aktiv, Müsavat Partiyasının üzvü Kənan Hacıəkbəroğlu sosial şəbəkədə maraqlı paylaşım edib. K.Hacıəkbəroğlu Avropada və ölkədən xaricdə yaşayan müsavatçılara müraciətlə aşağıdakıları yazıb: "Bilirsiniz ki, son zamanlar Azərbaycanda baş verən siyasi repressiyalar Müsavatdan da yan keçmir.**

Bunun nəticəsində saxta müsavatçılar, heç siyasi düşüncəsi Müsavata uyğun gəlməyən insanlar Avropaya üz tuturlar və gəlib burda özlərinin çirkin simalarını göstərirlər. Bəzi hallarda "yaşama izni" alaraq irtica iqtidarla siyasi əməkdaşlıq edirlər. Bunun qarşısını almaq üçün İsveçdə və Avropada yaşayan müsavatçılardan bir çağırışımız var. Kim Müsavat Partiyasının hansı rayonu üzrə qeydiyyatda olubdursa, bura yazmasını çox xahiş edirik. Saxta müsavatçıları araya çıxaraq. İsveçin Yöteborq və yaxın şəhərlərində yaşayan müsavatçıları bazar günü noyabrın 9-u saat 20:00-da "Azərbaycan evi"ndə Müsavatın ilkin toplantısına dəvət edirik. Hər bir müsavatçının qatılması vacibdir".



**Kənan Hacıəkbəroğlu:** "Avropaya saxta müsavatçılar gəlir, sonra özlərinin çirkin simalarını göstərirlər"



**Gülağa Aslanlı:** "Bunu sosial şəbəkədə yazmaq yerinə partiyaya bu şəxslərin adını göndərsinlər"

Bu elanla paralel siyasi klularda gedən bəzi söhbətlər yenidən aktuallaşıb. Belə ki, mühacirətə getmək üçün siyasi partiyalardan xahiş-minnətlə vəsiqə alan saxta müxalifətçilər mövzusu gündəmə gəlib. Bir aksiyaya qatılıb, bir şəkil çəkdirməklə özünü "demokratiya fədaisi" elan edənlərin çoxunun sorağı indi Avropanın müxtəlif bucaqlarından gəlir. Hamısı da ölkədə mübarizə aparan kəsimə rişxənd, istehza, kinayə tonunda münasibət göstərmək, tənqid etməklə diqqət çəkir.

Bu günə qədər "Yeni Müsavat" qəzetinin, Müsavat Partiyasının adından özünə saxtakarlıqla mühacir imici düzəltmək istəyən xeyli adam olub. Bunların bir çoxunun qarşısı alınsa da, ümumi axına tam mane olmaq mümkün olmayıb.

K.Hacıəkbəroğlunun məlum statusuna Müsavat Partiyasından mövqe öyrəndik. **Partiya başqanının müşaviri Gülağa Aslanlı** "Yeni Müsavat"a açıqlamasında bildirdi ki, xaricdə yaşayan müsavatçılarla əlaqə məsələsinə uzun müddət rəhmətlik Aydın Acalov nəzarət edib: "O, rəhmətə gedəndən sonra bu iş Yusif Tağıya həvalə olunub. Yüzdə yüz əminliklə deyirəm ki, Müsavatın tarixində heç vaxt partiyaya üzv olmayan insana partiyanın bileti, vəsiqəsinin verilməsi halı yoxdur. Amma elə faktlar var ki, üzv qəbul olub, tez bir zamanda da xaricə gediblər. Bir qayda olaraq həmin insanlar Müsavata üzvü olmaları ilə bağlı arayış istəyəndə biz onu verməmişik. Çünki üzvlüyə qəbul olunmuş adama arayış verməmək mümkün deyil. Belə bir təcrübə yoxdur. Həmin adamların sonradan orda dönüklük etməsi, hakimiyyətə işləməsi haqda kimdəsə faktlar varsa, bunu sosial şəbəkədə yaymazdan əvvəl bizə göndərsinlər. Biz onu araşdırıb deyə bilərik ki, bu adam partiyanın üzvüdür, ya yox. Ola bilər ki, heç üzvü deyil".

**Müsahibimiz dedi ki, bəzi şəxslər də mühacirətə gedəndən sonra ordan partiyaya yardım üçün müraciət edir:** "Amma biz partiyanın üzvü olmayan şəxsə partiyanın vəsiqəsini vermirik.

2011-ci ildən başqan müavini olmuşam. Mən təcrübəmdə, belə hala rast gəlməmişəm. Şəxsən kiməsə elə yolla vəsiqənin verilməsini bilmirəm, rast gəlməyib. Partiyada belə bir bizneslə məşğul olunması ilə bağlı deyilənlər isə Müsavat partiyasına qarşı bir böhtandır".

❑ **Sevinc TELMANQIZI**

# Hakimiyyət kimə arxalanır?



**Azər RƏŞİDOĞLU**

**Azərbaycanda siyasi gərginlik səngimək bilmir. Az qala hər gün belə bir xəbərin şahidi oluruq - daha bir müxalifətçi həbs edildi. Həbslərlə Azərbaycanda kimisə təəccübləndirmək mümkün deyil. Bütün bunların fonunda Qərbin müşahidəçi qismində çıxış etməsi yenə də anlaşılan deyil.**

Birbaşa özü ilə bağlı olan hüquq müdafiəçiləri və REAL sədri İlqar Məmmədov istisna olmaqla Qərb müxalifətçilərin təqibinə yetərincə reaksiya vermir. Bu amil isə iqtidarı sərt addımlarında daha inamlı edir. Hakimiyyət, hansısa qüvvədən qorxduğunu nümayiş etdirmir, əksinə, siyasi rəqiblərini həbs eləməklə özünün qətiyyətli inamlı olduğunu nümayiş etdirir. İqtidar həbsləri həyata keçirtməklə anlatmaq istəyir ki, beynəlxalq təzyiqlərə əhəmiyyət belə vermir. Yanlış bir mövqedir. Geosiyasi durum kataklizmlərdən sona qədər sığorta anlamına gələ bilməz. İqtidar gec və ya tez ölkədə insan haqlarına münasibəti köklü surətdə dəyişməlidir.

Bu gün hakimiyyəti özünə bu qədər inamlı edən geosiyasi durumudur. Belə ki, Vaşinqton strateji bölgə olan Azərbaycana nəzarəti ələ keçirmək planına görə rəsmi Bakının şıltaqlığına dözür. İranla ciddi problemlər, habelə Əfqanıstandan qoşunların çıxarılması baxımından Azərbaycan kimi platsdarma Vaşinqtonun ehtiyacı var.

Onu da unutmaq olmaz ki, ABŞ Azərbaycana çoxmilyonlu yatırımlar qoyub, ölkə Vaşinqtonun enerji layihələrində iştirak edir, geosiyasi amillərlə yanaşı bu iqtisadi faktor da təhlükəsizliyin zəmanətçisi kimi qəbul edilir.

Rəsmi Bakı geosiyasi seçimində Qərblə əməkdaşlığa üstünlük verməyə məhkumdur. Lakin rəsmi Bakı bunun əvəzində kompensasiya istəyir.

Bəzi təhlilçilərin fikrincə, belə bir kompensasiya 2015-ci il parlament seçkilərində mövcud iqtidarın dəstəklənməsi ola bilər. Görünür, son zamanlar Azərbaycan hakimiyyətinə qarşı artan təzyiqlər də məhz bu amillə bağlıdır. Rəsmi Bakı Qərbin tələblərinə əməl etməsə, Azərbaycanda demokratik aksiyalar nəticəsində iqtidara gələcək Qərbyönlü siyasi qüvvələr bu məsələdə mühüm rol oynaya bilərlər. Bir sözlə, rəsmi Bakıya imtina edə bilməyəcəyi təklif olunub.

Bütün bu oyunlarda Azərbaycan kiçik oyunçudur. Odur ki, rəsmi Bakının rolunu həddən ziyadə şişirtməyə də ehtiyac yoxdur.

Prinsipcə, tərəflər rəsmi Bakıdan nə istədiyini açıqlayıb.

Vaşinqton Qarabağla bağlı müharibə barədə fikirləşməmək, enerji layihələrində Qərbin yanında olmaq, Rusiya və İrana qarşı sərt mövqe ortaya qoymaq tələb edir, Moskva isə Avrasiya İttifaqı ilə bağlı tələblər irəli sürür.

Rəsmi Bakı isə növbəti dəfə balanslaşdırılmış siyasət adı altında manevrlərini davam etdirmək fikrindədir. Geosiyasi reallıqlar Bakıdan Qərblə daha sıx əməkdaşlığı tələb edir. Ən azı ona görə ki, İran ətrafında halqa daralmaq üzrədir. Moskvanın əli Ukraynadan çıxdıqdan sonra Rusiya üçün Azərbaycan böyük önəm kəsb edir və görünən budur ki, Moskva Bakının "ikili oyunları"na göz yummaq fikrində deyil.

**Bütün bunlara baxmayaraq, Azərbaycan hakimiyyəti nə Rusiya, nə də ki Qərbə doğru manevr etmək barədə düşünmür. Sanki kimlərsə rəsmi Bakının münasibətlərini hamı ilə korlamaq xətti seçib. Təbii ki, Azərbaycan hakimiyyəti ciddi arxa tapmadan dünyanın əsas güc mərkəzləri ilə münasibətlərini bu dərəcədə korlaya bilməzdi. Kənardan görünən budur ki, Bakı geosiyasi durumu ilə Qərbi şantaj edir. Lakin Qərb uzun müddət Azərbaycanda insan haqlarının pozulmasına seyrçi qala bilməz...**

YENİ MÜSAVAT
N 269 (5978) 1 noyabr 2014

# Arif Hacılıdan mühüm mesajlar

**Oktyabrın 31-də saat 14-də Müsavat Partiyasının başqanı Arif Hacılı başqan kimi ilk mətbuat konfransını keçirdi. A. Hacılının ilk açıqlaması Qarabağ münaqişəsi və kəlbəcərli girovlarla bağlı oldu. O, Azərbaycan və Ermənistan prezidentlərinin Paris görüşü barədə danışdı və bildirdi ki, Azərbaycanda ən aktual problem Qarabağ problemidir. Son dövrlər bu problem ətrafında müəyyən müzakirələr aparılır:**



# "Onlar nüfuzdan düşəcəklər"

## Müsavat başqanı ilk mətbuat konfransını keçirdi; "Biz Siyavuş Novruzovun sifarişi ilə yox, Müsavatın nizamnaməsi ilə fəaliyyət göstərəcəyik"

"Parisdə Fransua Ollandın iştirakı ilə Azərbaycan və Ermənistan dövlət başçılarının görüşü oldu. Bu görüşün yeganə müsbət cəhəti ondan ibarətdir ki, Soçi görüşündən, Rusiyanın Qarabağ məsələsində fəallığından sonra Fransanın da fəallaşması konfliktin Ermənistanın hərbi müttəfiqi olan Rusiyanın tam nəzarəti altına keçməsinə maneçilik törədən amildir. Ancaq bu görüş barədə heç bir məlumatın verilməməsi və növbəti Nyu-york görüşünün gələn ilin sentyabrına təyin olunması göstərir ki, hər hansı bir yol xəritəsi əslində mövcud deyil. Qarabağ konfliktinin həll olunması istiqamətində hər hansı bir ciddi irəliləyişlərin yaxın zamanlarda olacağını düşünmək mümkün deyil. Biz ən qısa müddətdə status-kvonun dəyişməsinə və Azərbaycanın suveren hüquqlarının Azərbaycanın bütün ərazisi üzərində təsbit olunmasına çalışmalıyıq. Müsavat Partiyası bu istiqamətdə Azərbaycan hakimiyyətindən səyləri artırmağı və problemin həlli istiqamətində imitasiya siyasətinə son qoymağı tələb edir.

Kəlbəcərdə girov götürülən iki azərbaycanlı Dilqəm Əsgərov və Şahbaz Quliyevin üzərində qondarma qurumun qondarma məhkəmə prosesi başlayıb. Hesab edirəm ki, həmin qondarma məhkəmədə onların hüquqlarının müdafiə olunması istiqamətində təşəbbüslər hətta xoşməramlı olsa belə, bu, faktiki olaraq həmin şəxslərin Azərbaycan ərazilərində terrorçular tərəfindən girov götürülməsi faktını kölgə altına alır və belə bir təəssürat yaranır ki, guya onların üzərində qanuni proses gedir. Halbuki, orada hər hansı bir məhkəmə yox, bir məzhəkə, tamaşa mövcuddur. Azərbaycan hakimiyyəti Azərbaycan vətəndaşlarını istər diplomatik, istər güc yolu ilə girovluqdan azad etməyə nail olmalıdır".

**Müsavat başqanı Azərbaycanın ən ciddi problemlərindən birinin də siyasi məhbuslar problemi olaraq qaldığından danışdı:** "Hazırda Azərbaycanda yüzdən artıq siyasi məhbus var. Təəssüf ki, yaxın zamanlarda siyasi məhbusların azadlığa çıxacağına ümidlər olsa da ümidlər doğrulmadı. Siyasi məhbusların mütləq əksəriyyəti yenə qeyri-qanuni olaraq həbsdə saxlanılır. Müsavat Partiyası hakimiyyətdən yüzdən artıq siyasi məhbusun azadlığa buraxılmasını tələb edir. Bu məhbuslardan Leyla Yunusun, İntiqam Əliyevin, Arif Yunusun, Fərəc Kərimlinin səhhətində ciddi problemlər var. Biz ilk növbədə bu dörd nəfərin dərhal azadlığa buraxılmasını tələb edirik. Yəqin ki, yaxın zamanlarda Müsavat Partiyası strukturları müxtəlif siyasi aksiyalar keçirilməklə bu problemin həm Azərbaycan ictimaiyyətinin, həm beynəlxalq ictimaiyyətin diqqət mərkəzinə gətirilməsi üçün təsirli tədbirlər görmək niyyətindədir".

**Ukraynada keçirilən parlament seçkilərindəın bəhs edən A.Hacılı dedi ki, Ukraynada parlament seçkiləri postsovet məkanında ciddi bir hadisədir. Çünki Ukraynada ilk dəfə olaraq avrointeqrasiya tərəfdarlarının mütləq əksəriyyəti parlamentə daxil oldu. İlk dəfə olaraq kommunistlər Ukrayna parlamentinə daxil ola bilmədilər:** "Bu, Ukrayna xalqının uğurudur. Demokratik dəyərlərə xidmət edən avrointeqrasiya tərəfdarlarının hakimiyyətinin Ukraynada möhkəmlənməsi Azərbaycanın da mənafelərinə uyğundur. Azərbaycan hakimiyyəti də, cəmiyyəti də bu məsələləri nəzərə almalıdır. Çünki yaxın vaxtlarda Azərbaycanda da avrointeqrasiya mövzusu indikindən daha aktual olacaq. Azərbaycan hakimiyyəti də, cəmiyyəti də demokratik Avropanımı, avtoritar Rusiyanımı seçmək məcburiyyəti qarşısında qalacaq. Müsavat Partiyası olaraq biz Azərbaycanda olan Avrointeqrasiya tərəfdarlarının mübarizəsinin önündə gedən bir təşkilat kimi fəaliyyət göstərmək niyyətindədir".

**Müsavat başqanı partiyanın 8-ci qurultayı və qurultaydan sonrakı proseslərlə bağlı da geniş danışdı. Bildirdi ki, ictimaiyyətdə gedən müzakirələri ümumən müsbət dəyərləndirir:** "Bu müzakirələr cəmiyyətdə Müsavat Partiyasına olan marağın göstəricisidir. İctimai diskussiyalar zamanı bəzi həqiqətə uyğun olmayan fikirlər də təəssüf ki, səslənir. Ancaq biz buna faciə kimi yanaşmırıq. İctimai diskussiyalar artıq onunla nəticələnib ki, həqiqətin harada olduğunu Azərbaycan cəmiyyəti artıq bilir".

**Arif Hacılı MNTK-nın Qubad İbadoğlu tərəfindən təqdim edilmiş arayışı diqqətlə araşdıraraq öz rəyini ictimaiyyətə açıqladığından da danışdı:** "Bu arayışın müəllifləri də əvvəlcədən bildirdilər ki, qurultayda saxtakarlığa yol verilməyib, sadəcə müəyyən məsəllərdə ədalət prinsipi pozulub. MNTK da orada qeyd olunan bir çox məsələləri araşdırıb və rəy verib ki, Müsavat Partiyasının 8-ci qurultayı ilə əlaqədar qurultayın qəbul etdiyi qərar tamamilə reallığı əks etdirir, qurultay ədalətli və şəffaf keçirilib. Müsavat bu qurultay ilə Azərbaycana bir sıra demokratiya nümunələri təqdim etdi... Seçki kampaniyası alternativ qaydada keçib. Paritet əsasda seçki komissiyası formalaşıb. Qurultay bitib və bir aydan artıq vaxt keçib. Hesab edirəm ki, bu məsələlər artıq yekunlaşmalıdır".

**A.Hacılı dedi ki, yaxın vaxtlarda partiya Məclisinin sədri seçiləcək, Mərkəzi İcra Aparatına rəhbər təyin olunacaq və digər vakant yerlərə kadrlar təyin ediləcək:** "Bununla da Müsavatda yeni siyasi rəhbərliyin formalaşması prosesi başa çatacaq. Partiyanın rəhbərliyi demək olar ki, əsasən dəyişib. Partiyanın rəhbərliyinə yeni adamlar gəlib. Partiyanın rəhbərliyində əvvəllər çalışan bəzi adamlar hazırda Müsavat rəhbərliyində artıq təmsil olunmur. Bu nəsil dəyişməsi prosesi, başqanının da dəyişməsi daxil olmaqla bu dəyişmə prosesinin tamamilə itkisiz, ağrısız olacağını düşünmək düzgün deyildi. Artıq bu məsələləri unutmalıyıq. Bu məsələlərin hamısını sentyabrın 27-dən əvvəlki dövrdə saxlamalıyıq və bu arayışla bağlı araşdırmalar başa çatdıqdan sonra Müsavatın ideoloji-siyasi xəttinə uyğun olaraq fəaliyyətimizi davam etdirməliyik. Müsavat Divanı ilin son iki ayı üçün fəaliyyət planının, 2015-ci illə əlaqədar fəaliyyət istiqamətlərinin müəyyənləşməsi barədə qərar qəbul edib. Artıq bu istiqamətdə layihələr hazırlanır. Divanın növbəti toplantısında qəbul olunacaq. Müsavat Məclisi bələdiyyə seçkilərində partiya üzvlərinin sərbəst buraxılması barədə qərar qəbul edib.



Bu qərara uyğun olaraq seçkilərə maraq göstərən bəzi partiya üzvləri namizədliklərini irəli sürüblər. Bu həftə ərzində Müsavatın Bakı və ərazisi işğal olunmuş rayon təşkilatlarının genişləndirilmiş Şura iclaslarında bələdiyyə seçkilərini yenidən müzakirə etmək niyyətindəyik. Gələn həftə respublikanın bütün ərazisində zona müşavirələri keçirərək Müsavatın yerli təşkilatlarının rəhbərləri ilə görüşmək və bələdiyyə seçkiləri ə digər məsələləri müzakirə etmək niyyətindəyik: "Müsavatın strukturları öz normal fəaliyyətini davam etdir. Başqan müavinlərinin toplantıları həftə ərzində keçirilir. Hər həftə Divanın toplantısı keçirilir. Qurultaydan sonra iki dəfə Məclisin toplantısı keçirilib. Son bir neçə il ərzində ilk dəfə idi ki, bu həftə Divan tam tərkibdə toplantısını keçirdi. Həbsdə olan Divan üzvləri istisna olmaqla, bütün Divan üzvləri iclasda iştirak edib. MNTK formalaşıb. Rayon təşkilatlarında strukturların hamısı fəaliyyətini gücləndirəcək. Müsavatın fəaliyyətinin çevikliyinin yaxın zamanlarda şahidi olacaqsınız. Biz Müsavat rəhbərliyi irəliyə baxmağı, Azərbaycanın qarşısında duran, demokratik düşərgənin qarşısında duran ciddi problemlərin həlli istiqamətində fəaliyyət göstərməyi qərara almışıq. Hər bir partiya üzvündən də bu mövqeyə gəlməsini arzu edirəm. Yaxın vaxtlarda Müsavat Partiyası strukturlarının fəaliyyətinin daha çevik, daha dinamik olduğunun şahidi olacaqsınız. Partiyanın MNTK-sı bir neçə il idi fəaliyyət göstərmirdi. Ancaq yeni yaranan MNTK bir ay ərzində bir çox işlər görüb, ciddi məsələləri müzakirə edib. MNTK tam tərkibdə iclaslarda iştirak edir. Bütün rayon təşkilatlarının strukturlarının formalaşması işini yaxın zamanlarda yekunlaşdırmaq niyyətdəyik. Bu istiqamətdə konkret tapşırıqlar verilib".

**A.Hacılı yaxın vaxtlarda müxalif siyasi təşkilatlarla, o cümlədən AXCP ilə də müttəfiqlik istiqamətində addımlar atmaq niyyətində olduğunu da açıqladı:** "Seçkidən əvvəl verdiyim sözə sadiqəm. Müttəfiqlik münasibətlərinin qurulması istiqamətində danışıqlara başlamağa çalışacağam. Ciddi müxalif partiyalar olan KXCP, AXCP və digər təşkilatlarla müttəfiqlik münasibətləri qurmaq istiqamətində onlara müraciət edəcəyəm".

**Sonra jurnalistlərin sualları cavablandırıldı.**

"Partiya daxilində narazılarla bağlı problemin həllini necə görürsünüz" sualına cavabında A.Hacılı dedi ki, hər şey Nizamnamə çərçivəsində həll olunacaq: "Mən heç kəsin Müsavatdan getməsinin tərəfdarı deyiləm. Hər bir partiya üzvünün 27 sentyabrdan əvvəlki dövrdə seçki kampaniyasında hansı mövqe tutmasından asılı olmayaraq, hamının birlikdə fəaliyyət göstərməsinin tərəfdarıyam. Müsavatda Arif Hacılının tərəfdarları, ya ayrı-ayrı üzvlərin tərəfdarları yoxdur, Müsavat Partiyası vahid bir komandadır. Hər kəsi 27 sentyabrdan əvvəl tutduğu mövqeni unutmağa, partiyanın seçilmiş başqanı, seçilmiş Məclisi, seçilmiş Divanı və digər rəhbər strukturları ətrafında birləşərək, partiyanın ümumi siyasi xəttini, strategiyasını həyata keçirmək işinə girişməyə çağırıram. Bu istiqamətdə məndən nə asılıdırsa, onu edəcəyəm. Mən bildirmişəm ki, kimin hansı mövqe tutmasından asılı olmayaq seçkidən sonra hər bir partiya üzvünü qucaqlamağa hazıram. Mənim bu bəyanatım qüvvədədir".

"Siyavuş Novruzov bildirib ki, əgər saxtakarlıq və narazılıq varsa, Müsavat yenidən qurultay keçirsin. Bu, Siyavuş Novruzovla narazıların mövqeyinin üst-üstə düşməsi sayıla bilərmi? Ola bilərmi ki, hakimiyyət Müsavata hansısa problemlər yaratmaq istəyir" sualına Müsavat başqanı belə cavab verdi: "Kimlərinsə, fikirlərinin üst-üstə düşməsi hələ avtomatik olaraq bu adamların əlbir olması demək deyil. Təbii ki, qurultayın nəticələrindən narazı qalanlar yenidən qurultay keçirilməsi istiqamətində fikirlər səsləndirə bilər. Mən qurultaydan sonra açıq şəkildə mənə səs vermədiklərini bəyan etmiş qurultay nümayəndələrinin yüzdən artığı ilə təmasda olmuşam. Gəldiyim nəticə ondan ibarətdir ki, əgər həmin qurultay nümayəndələri ilə bu gün qurultay keçirilsə, seçkinin nəticələri 27 sentyabrda olduğundan əsaslı surətdə fərqli olar. Mən 300-400 arası səs alacağıma heç bir şübhəm yoxdur. Ona görə qurultayın keçirilməsi ilə bağlı da heç bir narahatlığım yoxdur. Ancaq Müsavatda qurultay 4 ildən bir keçirilməlidir. Ona görə qurultayın yaxın vaxtlarda keçirilməsi real deyil. Buna zərurət də yoxdur. Nizamnamədə bu məsələlərə əlaqədar bütün suallara cavab verilir. Bütün məsələlər nizamnaməyə uyğun həll olunacaq. Biz Siyavuş Novruzovun sifarişi ilə yox, Müsavatın nizamnaməsi ilə fəaliyyət göstərəcəyik".

**Müsavat daxilində fraksiya yaradılması təşəbbüslərinə münasibətinə gəlincə, Müsavat başqanı dedi ki, Müsavat nizamnaməsində fraksiya yaradılması nəzərdə tutulmur və fraksiya yaradılması partiyanın maraqlarına uyğun deyil:** "Biz bir ortaq məxrəc tapmağa çalışacağıq, narazı olan partiya üzvlərini də dinləyirik və dinləyəcəyik. Kimlər fraksiya fəaliyyəti niyyətinə düşəcəklərsə, partiya üzvlərinin qarşısında bir qədər də nüfuzdan düşəcəklər".

"Narazıların ayrılıb yeni partiya yaradacağı informasiyaları yayılıb. Bu baş versə, onların arxasınca partiya yaradacaq sayda gedənlər olarmı?" sualına cavabında isə A.Hacılı bildirdi ki, Müsavat üzvləri partiyaya, müsavatçılıq ideyasına sadiq olan şəxslərdir: "Qurultaydan əvvəl də demişdim ki, qurultayın nəticələrindən asılı olmayaraq, Müsavatdan çıxan adamların sayı çox olmayacaq... Müsavat üzvlüyündən çıxanların sayı ikirəqəmli olacaq. Yaxın aylarda Müsavata daxil olanların sayı isə dördrəqəmli olacaq".

❑ Etibar SEYİDAĞA



# Roma Papası inqilab edir?

Hüseynbala SƏLİMOV

**Xristianlar təəccübləndirməyi bacarırlar. Müsəlman dünyası cəhalətə və geriliyə can atmaqda ikən onlar elmlə öz aralarındakı məsafəni qısaltmağa cəhd edirlər.**

Bu günlərdə Vatikanda akademiyada çıxış edərkən Roma papası böyük partlayış və təkamül nəzəriyyəsi ilə bağlı maraqlı fikirlər səsləndirib. O, deyib ki, bu iki nəzəriyyə ilə din arasında elə bir ziddiyyət yoxdur, din adamları da həmin nəzəriyyələri qəbul edirlər...

Xatırladaq ki, uzun illər din Kainatın və insanın yaranması ilə bağlı fərqli prinsiplərə söykənib. Amma bəri başdan deyək ki, Kainatın yaranması ilə bağlı ən populyar nəzəriyyələrdən birinin - "Böyük partlayış" nəzəriyyəsinin banilərindən biri keşiş Lemetr olub...

O ki qaldı təkamül nəzəriyyəsinə, onun yaradıcısı Çarlz Darvinlə kilsə arasında heç bir problem olmayıb, nə kilsə ona toxunub, nə də Darvin kilsəyə.

Hətta səhv etmiriksə, Darvin İngiltərənin ən mötəbər qəbiristanlıqlarından birində uyuyur....

Amma kilsənin təkamül nəzəriyyəsinə münasibəti birmənalı da olmayıb. Elə dövlətlər var ki, onlar hələ də darvinzimi tədris etmirlər. Güman ki, papanın bu bəyanatından sonra məsələ bir daha çözüləcək...

Burada bir şeyi də qeyd etmək lazımdır ki, elm darvinizm və böyük partlayış nəzəriyyələri qarşısında heç də dindən az sual qoymur. Genetikanın və molekulyar biologiyanın elə məqamları var ki, onlar alimləri, darvinzim üzrə mütəxəssisləri, eləcə də kosmoloqları çox çətin suallar qarşısında qoyur...

Böyük partlayış nəzəriyyəsi mənə daha çox yaxındır. Bir vaxt ixtisasım olub bu. Sonradan tale elə gətirdi ki, başqa işlərlə məşğul olmağa başladım. Amma fürsət olanda bu sahədəki nailiyyətləri ötəri olsa da nəzərdən keçirirəm. Təbii ki, mən artıq bununla professional şəkildə məşğul olmuram. Sadəcə, mənə bu maraqlıdır...

Qərəz, nə demək istəyirəm? Son 50 ildə Kainatla məşğul olan elm-kosmologiya çox irəli gedib. Amma elmlərin maraqlı xüsusiyyəti var. Onlar yeni suallar meydana çıxarır, onların tərəfdarları və əleyhdarları olur.

Kosmologiyada bu son illərdə ən populyar nəzəriyyə "inflyasiya nəzəriyyəsi" olub. Amma onun da əleyhdarları var. Məsələn, R.Penrouz kimi məşhur alim bu nəzəriyyəni qəbul etmir. Onun fikrincə, "inflyasiya nəzəriyyəsi" suallara cavab vermir, sadəcə, onların üzərinə pərdə salır...

O ki qaldı darvinzimə, müasir biologiya ilə müqayisədə o, çox empirik görünür.

Xüsusən də genetika və molekulyar biologiya darvinzim qarşısında böyük suallar qoyur. Böyük partlayış nəzəriyyəsi ilə məşğul olan kosmoloqlar deyir ki, bizim Kainat müxtəlif üsullarla yaradıla bilərdi - onu laboratoriyada yarada bilərdilər və yaxud da ki, onu Allah yarada bilərdi...

Təkamül nəzəriyyəsi ilə bağlı isə daha kritik məqamlar var. Bir dəfə oxumuşdum ki, təkamül yolu ilə növlərin əmələ gəlməsi üçün lazım olan vaxt Kainatın yaşından artıqdır...

Bir neçə belə məqam sadalamaq olar. Darvinizm bu suallara nə cavab verir? Bu sualın özünə cavab vermək üçün gərək bioloq olasan. Amma bildiyimiz və başa düşdüyümüz budur ki, o, belə suallara hələ ki cavab vermir...

Amma bütün bunlara rəğmən kilsə elmə yaxınlaşmağa cəhd edir. Bütün hallarda bu, ən düzgün yoldur. Kosmologiyada "antropogen prinsip" adlanan məqam var.

Məğzi budur ki, Kainat ona görə belədir ki, digər proseslər, digər hallar müşahidəçi olmadan baş verir. Tanrı insanı ona görə yaradıb ki, həmin bu insan adlı varlıq onun yaradıcılığına şahidlik etsin...

Əks təqdirdə, dərk edən varlıq olmayacağı halda proseslər tamam mənasız olardı. Təsəvvür edin, Kainat var, amma orada dərk etməyə, öyrənməyə qadir subyekt yoxdur. Belə Kainat kimə lazımdı? Onu yaratmağın mənası varmı?

O ki qaldı kilsəyə, onlar başa düşür ki, elm Kainatı dərk etmək üçün yeganə vasitədir. Başqa üsullar fiksiyadır.

Təbii ki, elm heç də bütün suallara dəqiq, səhih cavab vermir. Amma bu, yüz illər ərzində bəşəriyyətin də fikirləşib tapdığı yeganə vasitədir, başqası yoxdur...

Ona görə də Vatikanın mövqeyini rasional mövqe hesab etmək olar. Mən demək istəmirəm ki, islam, islam kosmologiyası fərqli mövqe sərgiləyir. Yox, bəlkə də islam müasir elmlərə xristianlıqdan daha yaxındı...

Amma biri var islam, biri də var ki, adi və yüksək din xadimləri. Onlar bir çox hallarda təəssüf ki, rasionallıqdan uzaq olurlar.

**A.Eynşteyn elmlə dini qarşı-qarşıya qoymamağa çağırırdı. Bəlkə ən düzgün yol elə budur?..**

# "Sevinc Babayeva deyirdi, mən MTN mayoruyam, məndə də səs yazıları var"

## Elşad Abdullayevdən yeni, sensasion müsahibə

**"Yeni Müsavat"ın ötən sayında ""mandat alveri" qalmaqalının əsas fiquru, 2012-ci ilin 26 dekabrında dünyasını dəyişən Sevinc Babayevanın İstanbul günləri ilə bağlı yeni detallar dərc etmişdik. Redaksiyamızın ünvanına göndərilən məktubda S.Babayevanın 2012-ci ilin 26 sentyabr -26 dekabr tarixləri arasında bir neçə dəfə Fransada mühacirətdə olan sabiq ABU rektoru Elşad Abdullayevlə telefon əlaqəsi yaratdığı iddia olunmuşdu. Məktubdakı bu və digər detallarla bağlı müxbirimiz E.Abdullayevlə danışmağa cəhd edib. Bu, mümkün olmadıqda isə elektron ünvanına suallar yollayıb. Sabiq ABU rektoru suallarımızı aşağıdakı kimi cavablandırıb.**

**- Elşad bəy, redaksiyamıza bir anonim məktub daxil olub. Həmin məktubun müəllifi iddia edir ki, Sevinc Babayeva İstanbulda olarkən sizinlə bir neçə dəfə telefonla əlaqə saxlayıbE**

- Sevinc Babayeva İstanbulda olarkən bizim telefon və başqa heç bir əlaqəmiz olmayıb. Bunu təsdiq etmək üçün sadəcə olaraq telefon danışıq listinqlərini izləməklə təsdiq də etmək olar. Bu həqiqətə uyğun olmayan faktdır. Bunu edən adam da Sevinc Babayevanı İstanbulda qətlə yetirən qatildir. Biz sosial şəbəkələrdə ictimailəşdirdiyimiz gizli video görüntüləri prezidentə, prokurorluğa və MTN-ə verdikdən sonra Azərbaycanda adam oğurluğu ilə məşğul olan mütəşəkkil cinayətkar təşkilat məni iz-siz-tozsuz fiziki cəhətdən aradan götürmək məqsədilə silahlı qara maskalıların hücumuna məruz qaldım. Bu mənim üçün gözlənilməz oldu. Biz prezidentdən və hüquq mühafizə orqanlarından şikayət edib köməklik istəyirik, həmin silahlı qara maskalılar da sənə silahlı basqın edir. Prezidentə yazdığım şikayətlərin hamısını Ramiz Mehdiyev oxuyurdu. Ona görə də sağlam məntiq təsdiq edir ki, sülalə hakimiyyəti Azərbaycanda adam oğurluğu ilə məşğul olan mütəşəkkil cinayətkar təşkilatla əlbir fəaliyyət göstərir. Son dəfə Bakıda olanda silahlı qara maskalılar məni təqib etdi. Bu zaman İçərişəhərdə tanınmış xalq rəssamı, professor Tahir Salahovun rəssamlıq ofisinə girdim və ardımca içəri girə bilmədilər. Mən vəziyyəti Tahir Salahova anlatdım, bu zaman kimsə Tahir Salahovun mobil telefonuna əsəbi zəng etdi, Tahir Salahov zəng edəni sakitləşdirdi ki, mən çalışaram işləri yoluna qoyam. Tahir Salahov mənə bildirdi ki, Elşad müəllim, bunlar pis adamlardır, tələbləri budur ki, prezidentə və Avropa Məhkəməsinə yazdığın şikayətləri geri götürəsən. Açığını deyim ki, rəssam Tahir Salahov çox həssas adamdır. Hətta bir az da gözləri yaşardı. Bildirdi ki, mən də bu vəziyyəti yaşamışam, məsləhət bilirəm şikayətlərini geri götürəsən. Mən həmin günü - 20 sentyabr 2010-cu il tarixindən məcburiyyət qarşısında qalıb təhlükəsizliyimi təmin etmək məqsədilə Azərbaycandan çıxdım. Həmin andan etibarən, mən Sevinc Babayeva ilə nə telefon və bilavasitə əlaqəm olmamışdır. Bunu yoxlamaq çətin də deyildir. Telefon danışıqları listinqini yoxlamaqla bunun həqiqiliyini də təsdiq etmək olar. Sevinc Babayeva və Gülər Əhmədova ilə əsasən 2003-2005-ci illər tarixində oğurlanmış qardaşım Mahir Abdullayevin pul müqabilində geri qaytarılması və onun ardınca deputat seçilməyimlə əlaqədar aktiv görüşmüşük. Lakin, 2005-ci ildən sonra onlar işlərini bitmiş hesab etdilər, mənimlə görüşməkdən imtina etdilər. Mən onlardan pulumu tələb edəndə mənə prokurorluğun və "KQB"-nin əməkdaşları mane olurdular. Bir hüquq professoru kimi, bir daha təsdiq edirəm ki, bu günə qədər də mənim əleyhimə KİV-lərdə Gülər Əhmədovanın və başqalarının adından yazılan məqalələr hazır konvertlərdə KİV-lərə ötürülür.

Bir hüquq professor kimi hesab edirəm ki, o telefon danışıqları saxta , "fabrikovat" olunmuş, həqiqətə uyğun olmayan telefon danışıqlarıdır. Bu özü cinayətdir, mənə sürətini göndərin. Fransada ekspertizadan keçirib həmin adamları beynəlxalq məhkəməyə verəcəyəm. Şübhə etmirəm ki, yenə də bu daşın altından o adamların adı çıxacaq. Mən dəfələrlə onların telefon danışığına qulaq asmışam. Sevinc Babayeva və Gülər Əhmədova sadəcə olaraq çarəsiz icraçılardır. Lazım gəldikdə də çox asanlıqla qurban verilirlər.

**- İddiaya görə, həmin danışıqlar zamanı Sevinc Babayeva sizdən xahiş edib ki, onu Türkiyədən çıxarıb gizlənməyində yardım edəsiz?**

- Onunla danışmadığım halda necə ona belə təklifdə buluna bilərəm ki? Mən 20 sentyabr 2010-cu il tarixində Bakıdan çıxandan sonra Gülər Əhmədova ilə vəkilim Adil İsmayılov vasitəsilə danışmışam, deputat Gülər Əhmədovadan pullarımı tələb etmişəm. O da söz verdi, bizdən 2-3 gün vaxt istədi ki, pulu alıb qaytaracağam. Bunu da mənə vəkilim Adil İsmayılov bildirdi. Amma daha sonra hökumət məmurları tərəfindən pulu qaytarmaq əvəzinə həmin ərəfədə KİV-lər vasitəsi ilə özlərinə məxsus oğru dilində bəyanat verdilər ki, "Elşad Abdullayev qələt edir. O, neqativ adamdır". Yəni, bizdən pul gözləməyin. Bundan sonra, biz Parisdən hüquqşünas-bloqqer Elnur Məcidlinin facebookundan Gülər Əhmədovanın facebookuna yazlb yenidən ondan pullarımızı tələb etdik. Hətta KİV-lərdə də yayınlanmışdı ki, Gülər Əhmədova Qazaxda həbs edilərkən məndən aldığı pulu da rəsmi olaraq etiraf edib.

**- Siz ona nə zamansa 5 milyon dollar qarşılığında əlində olan bəzi video və materialları göndərməyi təklif etmisiz?**

- Yuxarıda izah etdim ki, mənim onunla heç bir görüşüm olmadığı üçün belə təklif edə də bilməzdim. *(Xatırladırıq ki, müsahibə canlı yox, yazılı şəkildə götürülüb. Müsahibimiz ona verilən sualları sıra ilə cavablayıb və bizim avtomatik olaraq onun hansı sualı necə cavablamasından xəbərimiz olmadığı üçün növbəti sualda da cavablarını nəzərə ala bilməmişik -S.T.)* Ancaq, Sevinc Babayeva bizə bildirmişdi ki, "mən də MTN mayoruyam, narahat olmayın mən də bəzi adamların səsini yazmışam. Nə zamandır ki, kim kimin pulunu yeyə bilər, narahat olmayın. Sizin pulunuzu qaytaracağıq. Hətta Gülər Əhmədovaya Azərbaycanda çox yuxarıda oturanların özü və ailə üzvləri haqqında ifşaedici gizli video görüntüləri verilib, onunla da Gülər deputat keçdi. Yoxsa yuxarılar onun deputat keçməsinə mane olurdular".



**""Gülər Əhmədovaya çox yuxarıda oturanların özü və ailə üzvləri haqqında ifşaedici gizli video görüntüləri verildiyi üçün deputat seçilə bildi"**

**- Bu məlumatı bizə göndərən şəxsin kimliyini bilmirik. Amma o, daha öncə bizə Sevinc Babayevanın "itmiş" xarici pasportunu surətini, habelə bəzi səs yazılarını da yollayıb.**

- Ümid edirəm ki, bu cinayətkarlar beynəlxalq səviyyədə yaxın zamanlarda həbs ediləcəklər. Sevinc Babayevanın 10%-lik sosial şəbəkələrdə bizim tərəfimizdən ictimailəşmiş gizli video görüntüləri bir daha təsdiq edir ki, beynəlxalq status almış "Gülərqeyt" susurluğunda Sevinc Babayeva və Gülər Əhmədova icraçıdılar. Bunların bu gün belə mənim üstümə gəlməsinin əsas səbəbi gizlin əli gizlətməkdir. Bu ilin sentyabr ayında Kiyev şəhərində XTİ və polisin birgə fəaliyyəti nəticəsində 25 donordan qanunsuz qara transplantasiya edən iki həkim həbs edilibdir. Onlarından 15-i isə Azərbaycanın tibb klinikalarında həyata keçirilib, istintaq gedir. Keçən dəfə günahsız adamı cəzalandırdılar. Beynəlxalq status almış "GÜLƏRQEYT" cinayətinin işini aparan AR Baş Prokurorluğunun və məhkəmələrinin vətəndaşlarına necə yalan danışmaları, aldatmaları və zərərçəkmişin hüquqlarını müdafiə etmək əvəzinə üstünə getmələri heyrətə gətirir. Bu qanunsuz əməllərin hamısı ağır dövləti cinayətdir. Haqq nazirlər, ancaq , üzülməz.

❑ Sevìnc TELMANQIZI

YENİ MÜSAVAT
N 269 (5978) 1 noyabr 2014









# Cənubi Qafqazda baş verən bütün problemlərin qaynağı Rusiyadır

## Azərbaycan-Ermənistan konflikti mövzusunda rəsmilərin istəyi bizim ancaq sülh və barış üzərindən hərəkət etməmizdir






**Oktyabrda Litva parlamentində Avropa Birliyi və Litva Xarici İşlər Nazirliyinin himayəsi ilə 3 günlük Şərq Tərəfdaşlığı Proqramı Ölkələrinin Gənc Liderlərinin Akademiyası keçirildi. Bu tədbirdə Azərbaycanı təmsil edən gənc liderlərdən biri Ümid Partiyasının Beynəlxalq Əlaqələr şöbəsinin müdiri Tamilla Qulami oldu. O, tədbirlə bağlı təəssüratlarını bu yazıda bölüşüb:**

- Azərbaycan Ümid Partiyası olaraq planlaşdırırıq ki, beynəlxalq təşkilatlarla aktiv işləyib əlaqələrimizi genişləndirək. Partiyamızın xarici strategiyasının ana xəttini məhz digər ölkələrlə region üçün əhəmiyyətli olan mövzularda əməkdaşlıq və bunu aktiv şəkildə həyata keçirmək təşkil edir. Litvaya səfərim də məhz bu fəaliyyət çərçivəsində idi.

13-15 oktyabrda Litva Respublikasının ev sahibliyi ilə Avropa Birliyi Şərq Tərəfdaşlığı çərçivəsində Gənc Liderlərin Akademiyası baş tutdu. Azərbaycan Ümid Partiyası olaraq Litva Xarici İşlər Nazirliyindən rəsmi dəvətlə Vilnüsə yola düşdük. 3 gün ərzində Litva Parlamentində Litva Prezident Aparatının rəhbəri (kansler), Parlament, Avropa Birliyi nümayəndələrinin, Şərq Tərəfdaşlığı ölkələrinin gənc siyasi liderlərinin təmsilçiliyi ilə (Belorusiya, Moldova, Ukrayna, Gürcüstan, Ermənistan, Latviya) Şərq Tərəfdaşlığı proqramının inkişafı yolları, prioritetlər və risklər mövzusunda müzakirələr, fikir mübadilələri edildi.

Akademiyanın ilk günündə parlamentdə Litva Parlamentinin üzvü, Gənc Liderlər Forumunun sədri Viktoriya Braziunayte, Vilnüs Universiteti, Beynəlxalq Əlaqələr və Siyasi Elmlər İnstitutunun nümayəndəsi Dr. Laurynas Kasciunas ilə "Siyasətçilərə peşəkar çağırış" mövzusunda gənc siyasi liderlərin mövcud imkanlar çərçivəsində siyasətdə nəsillər qarşıdurmasının həlli yollarının, parlamentin İctimai Əlaqələr, Rabitə və İnformasiya şöbəsinin müdiri Jolanta Anskitienenlə ictimai informasiya istehsalçılarının ictimaiyyətə məlumatların çatdırılmasının doğru və uğurlu vasitələri ilə siyasi, iqtisadi, inzibati islahatların həyata keçirilməsi və birgə dəyərlərə hörmət edilməsində konkret irəliləyişə nail olunması mövzularının müzakirəsi, əslində bu kimi forumlarda iştirak etməyin müsbət tərəflərindəndir.

Gələcəkdə uğurlu siyasətçi olmağı qarşısına qoyan hər bir gənc dayanmadan öz üzərində işləməli, təkmilləşməli, siyasətdə mövcud vəziyyətlərin, oyunların keçmiş qaydalarından xəbərdar olmalı, yaşlı nəsillə uzlaşmasa belə, hər zaman onlardan öyrənməli və davamlı olaraq auditoriyayla əlaqədə olmalıdır. Bildiyiniz kimi Şərq Tərəfdaşlığı Avropa Birliyinin qonşuluq siyasəti postsovet ölkələri ilə münasibətlərin yaxşılaşdırılması, əlaqələrin genişləndirilməsi, əməkdaşlığın inkişaf etdirilməsinə yönəlmiş təşəbbüsdür. Hamımız bilirik ki, bütün bunlar Azərbaycan üçün vacib məsələlərdəndir. Hər kəsə məlumdur ki, Cənubi Qafqazda baş verən bütün problemlərin qaynağı Rusiyadan gəlir. Təəssüflər olsun ki, bəzi region dövlətləri, etnik-milli azlıqlar bu həqiqəti anlamadan Rusiyanın siyasətinə maşa olur. Ən başda da Ermənistan. Məgər Avropa və ya digər dövlətlər inanır ki, Ermənistan təkbaşına Azərbaycanın 20%-ini işğal edərək məğlub edib? Bu tipli bəyanat və mövqelər inandırıcı deyil axı. Gözümüzün önündə siyasi, ideoloji, hərbi çəkişmələri geridə qoyub tarixin yeni səhifəsini açmış Avropa Birliyi modeli var. Forumda çıxışımda da bu mövzudan çıxış etdim. Cənubi Qafqaz ölkələri Rusiya sayəsində bir-biri ilə müharibəyə cəlb olunub. Tarixə dərindən nəzər yetirsək görərik ki, Qafqaz xalqlarının arasına savaş salan, bölücülük, separatizm doğuran faktorlardan biri Rusiyadır. Rusiya bu gün ATƏT-in Minsk qrupu çərçivəsində Dağlıq Qarabağa yönəlik siyasət sərgiləyib, bu problemi həll edən tərəf kimi özünü göstərir və öz qoşunlarını sülhməramlı qüvvələr adıyla Dağlıq Qarabağa yerləşdirmək, bu bölgəni Cənubi Qafqazda özünün mərkəzi bazası elan etmək niyyətindədir. Ermənistan tərəfi isə ya elə bilir, ya da elə bilmək istəyir ki, Rusiya ona gerçək himayəçidir. Düşünmür ki, qonşularla bu şəkildə münasibət onları region dövlətlərindən, iri iqtisadi layihələrdən, yeni bazar münasibətlərindən kənarda saxlayıb, tək Rusiyadan asılı edir.



Çıxışdan sonra bir şeyin fərqinə vardım ki, Azərbaycan-Ermənistan konflikti mövzusunda rəsmilərin istəyi bizim ancaq sülh və barış üzərindən hərəkət etməmizdir. Biz də Azərbaycan Ümid Partiyası olaraq qeyd edirik ki, əslində dondurulmuş konfliktlər, atəşkəslər əbədi deyil, silahların yenidən atəş açmaması üçün əl-ələ verib hamımızın ümumi evi olan Cənubi Qafqaza sülh, barış gətirməliyik. Bu istiqamətdə Türkiyə, Avropa Birliyi ilə iş görməli, bu proyektə donorluq edə biləcək təşkilatlarla iş birliyi qurmalıyıq. Cənubi Qafqaz xalqları da strateji düşünməli, xalqlarının gələcəyi naminə yaxın qonşuluq siyasətini, dinc yanaşı yaşamanı, beynəlxalq hüququ, dövlətlərin ərazi bütövlüyünü, xalqların etnik-milli haqlarına dövlətləri çərçivəsində hörmətlə yanaşma kursuna riayət etməlidir.

# Ramin Hacılı Türkiyə Avropa Hərəkatının prezidenti ilə görüşüb



**Türkiyədə səfərdə olan Ümid Partiyası sədrinin Beynəlxalq Əlaqələr və Strateji məsələlər üzrə müavini, Azərbaycan Avropa Hərəkatının prezidenti Ramin Hacılı Türkiyə Avropa Hərəkatının prezidenti İstanbul Universitetinin professoru, xanım Gül Turanla görüşüb.**

Görüşdə hər iki tərəf bundan öncəki əməkdaşlıqdan məmnunluğunu ifadə edib və ikitərəfli fəaliyyətləri daha da genişləndirməyi qərara alıblar. Bununla yanaşı Cənubi Qafqazda sülh prosesində Beynəlxalq Avropa Hərəkatı çərçivəsində görülən işlərdə birgə iştirak da əsas müzakirə mövzusu olub. Qərara alınıb ki, bu ilin noyabr ayının 28-29-da İtaliyanın paytaxtı Roma şəhərində keçiriləcək Beynəlxalq Avropa Hərəkatının illik samitində eyni mövqedən çıxış etmək üçün təkliflər planı hazırlansın. Ermənistan Avropa Hərəkatının qondarma "erməni soyqırımı" ilə bağlı qurumun tərkibində iş aparması bunu zəruri edən əsas faktordur və hər iki tərəfin birgə mövqeyidir. Ramin Hacılı bildirib ki, Türkiyə və Azərbaycan Avropa Hərəkatının əməkdaşları sülhə xidmət etdiyini bəyan edir və tarixə siyasi plüralizmdən yanaşmanın subyektiv olacağına inanır: "Biz bu günədək bütün əməkdaşlıqlarımızda barışı önə çəkmişik, bundan sonra da tarixçi kimi deyil, gələcəyə baxan, yalnız öz xalqının deyil bütün insanlığın rifahı üçün birlikdə fəaliyyəti daha uğurlu sayırıq ".

**Bu səhifə Ümid Partiyası tərəfindən təqdim edilmişdir**



# Qələm və buqələmun

Zamin HACI
zaminhaci@gmail.com

*(mətbəx problemləri)*

**Bu gün yaradıcılıq prosesində üzləşdiyimiz bəzi problemləri oxucularla bölüşmək istərdim. Yoxsa elə sanırlar köşə yazarlığında yel əsib, qoz tökülübdür, biz də o qozları yığıb, ləpələyib basırıq.**

Deputatxana üzvü Qalib Salahzadə adlı şəxsiyyət vardır. Şeyx Allahşükür müəllimin (Ya rəb, sən onun ehsan salonlarını həmişə dolu elə! İlahi, amin! Ey dar günün sahibi!) ya qudasıdır, ya da nəsə başqa qohumudur. Mən özüm qohumbaz olmadığım üçün belə şeylərə qəti fikir vermərəm. Uzun sözün qısası, bu Qalib müəllim çox koloritli insandır, vaxtaşırı intervü verir, ağzından inci, dürr səpir, hər intervüsündən azı yarım "KAMAZ" dolusu mövzu qayırmaq mümkündür. Misal üçün, bir-iki ay qabaq zəngilanlının gəlib Bilgəhdə icra nümayəndəsi qoyulmasını tənqid eləmişdi. Təzəlikcə bələdiyyə seçkilərinin saxta olmasından danışıbdır.

Ancaq bu adamın bir mənfi cəhəti var ki, danışdığı mövzuları elə özü də həmin intervünün içində təkzib edər, yalanlayar, sənə imkan verməz bir-iki cümlə şərh yazıb çörəyini qazanasan (yaxud, yuxarıdakı misaldakı kimi, qozunu qazanasan). Çox dəhşətli adamdır. Mənim ürəyim partlayacaq axırda.

Misal üçün, Qalib müəllim intervü başlayanda "Qatıq ağdır" deyər. Müxbir şuluq üçün "Axı cənab prezidentin sərəncamı var, ölkəmizdə indən belə qatıq qaradır" sualını yapışdırar deputatın alnına. Bu zaman Qalib müəllim deyər: "Əgər sərəncam varsa o zaman yəqin qatıq qaradır. Ümumiyyətlə, mən ancaq bu hakimiyyətin qatığını yeyirəm".

Söhbət bu cür qurtarsa nə vardı? İntervü fırlanar, sual gələr qəhvəyi rəngin üzərinə, jurnalist soruşar ki, Qalib müəllim, Azərbaycanda hansı mavi rəngləri tanıyırsınız. Qalib müəllim deyər: "Əlbəttə, ən çox mavi rəngdə olan qatıqdır". Müxbir bayaqkı cavabları yada salar, bu zaman deputat heç tövrünü pozmadan qatığın boz rənginin ölkəmizə bir Allah lütfü olduğunu söyləyər. Nəhayət, intervünün lap axırında Qalib müəllim oxucuları Azərbaycanda aparılan dinc quruculuq işlərinə baxmağa səsləyər: "Küçəyə çıxın, görün nə qədər yaşıl rəngdə qatıqlar vardır!"

İndi sən bundan nə yazasan? Gül kimi quş buraxır, quşu da elə özü vurur. Bir növ, buqələmun tipində canlıdır - intervünün içində min dəfə rəngini dəyişir. Buqələmundan heç roman yazan gördünüzmü? Yoxdur. Biri aslandan yazır, başqası qartaldan yazır... Hətta milçək və ağcaqanad, kərtənkələ və tısbağa haqda da bədii əsərlər, şeir və poemalar qayırmaq olar, necə ki, AYB üzvləri hazırda bu istehsal prosesi ilə məşğulat edirlər; lakin buqələmundan yazmaq çətindir. Hər an rəngini dəyişir, nə yazasan? Bunu hansı görkəmdə təsvir edəsən ki, yanlış olmasın?

Başqa bir çətinlik oxucu məktubları ilə bağlıdır. Misal üçün, Aqil Mirzəyev yazır: "Sizin gündəlik məqalələrinizin izləyicisiyəm. Düzünü desəm, gündəlik həyatda baş verən proseslərə çox biganəyəm. Biganəlik yaxşı xüsusiyyət deyil, bilirəm. Amma son illər hər şey, əsasən də bizim yaşadığımız sərhədlər daxilində, o qədər maraqsızlaşıb ki, vaxtı elə sönük hadisələri öyrənməyə sərf etməyi özümə rəva bilmirəm. Ondansa oturub 1-2 anekdot oxuyaram (nə qədər oxusam da, çox az yadımda qalır ). Nə isə... Mən sizə başqa şeyə görə yazıram. Elə indicə sizin köhnə bir yazını oxudum. Orda siz bir məsələ ilə bağlı oxucuların xatırlatma etməsini tapşırırsınız. 7 Fevral 2014-cü il tarixli yazının sonlarında. Mən sizdən xahiş eləyirəm ki, növbəti yazılarınızdan birində dairə mövzusunda "uzun" bir söhbət açasınız; en dairəsi, gen dairəsi, mayallaqaşma fizio-psixoloji təbiət hadisəsi halında insanın öz hərəkəti ilə hansı xəyali dairələri qət etməsi (biz bilirik ki, bu həm də idmandı), uca millətimizin özünü sadə hesab etməyən, kitayski Lacoste krasovkalarına soxduğu ayağında burnu cırıq sintetik corab olduğu faktı ilə barışmaz mövqedə dayanan (əsas odur, üzərində yaşadığımız bu qədim diyarın iri dövlətinin yekə hökumətinin binoklla görən siyasəti ilə uyğundur) nümayəndələrinin belə hərəkətləri anında həzzin elmi-nəzəri dairəsi - bunda aşma, çaşma, mərkəzdən qaçma qüvvəsi, hətta, Allah göstərməsin, eksentrizmin əlamətlərinin ola bilmə dərəcəsi (P.S. burda əsas, dərəcə işarəsindəki o çevrəvari yumru zada diqqət vermək lazımdı), hətta halqa və xalta kimi vacib elementlərə də toxunmağınızı xahiş eləyirəm".

**Bax, mən bir həftədir bu məktubu anlamağa çalışıram, başım şişib. Nə niyyətlə yazıbsa öz qabağına çıxsın.**

# Anar Məmmədovun 500 minlik qətl sifarişinə hüquqi rəy

**Azərbaycanın bir sıra məmur-oliqarxları və onların övladları ilə bağlı sensasion məlumatlar artıq ölkə sərhədlərini aşıb. Bu günlərdə Türkiyənin "Hürriyet" qəzeti növbəti dəfə 2013-cü il mayın 14-də Azərbaycan nəqliyyat naziri Ziya Məmmədovun oğlu Anar Məmmədovun Türkiyədəki cangüdənləri arasındakı silahlı insident haqqında geniş material dərc edib.**



Anar Məmmədov

## "Nazir oğlunu ömürlük həbs gözləyir"

**Hüquqşünas Müzəffər Baxışov:** "Türkiyə Cəza Məcəlləsinə görə, onu cinayət məsuliyyətinə cəlb edə bilərlər, amma..."; "Qarant Holdinq"in vəkili Ruslan Məmmədov: "Yaxın günlərdə bununla bağlı ətraflı məlumat veriləcək, hüquqi addımlar atılacaq"



Müzəffər Baxışov



Ruslan Məmmədov

### Nazirin oğlunun adı Türkiyə qəzetlərinin manşetində; "Hürriyet" qəzetində sensasion yazı dərc olunub; Anar Məmmədov ondan pul oğurlayan mühafizəçisini öldürtməyi sifariş verib; dərc olunan yazı "gizli əl" sayəsində "Hürriyet"dən silinib; lakin "iz" qalır...

**Bu haqda "Azadlıq" qəzetinin saytı Türkiyənin "Hürriyet" qəzetinə istinadən xəbər yayıb. "Hürriyet" yazır ki, hadisə adi kriminal olmaqdan çıxıb:** "Çünki olayın arxasında Azərbaycanın nəqliyyat naziri Ziya Məmmədovun oğlu Anar Məmmədovun adı peyda olub. 2013-cü il mayın 14-də Antalyada, Gənclik məhəlləsində baş verən bu qanlı hadisə Ziya Məmmədovun oğlu Azərbaycan-Amerika Alyansının, eləcə də "Garant Holding"in prezidenti Anar Məmmədovun mühafizəçiləri arasında baş verib. Hadisə Anar Məmmədovun mühafizəsinin rəisi olan 51 yaşındakı ehtiyatda olan zabit İsmayıl Gənc ilə mühafizəçi, 35 yaşındakı Kubilay Göl arasında yaşanıb. Mübahisə böyüyüb, hər iki tərəf silaha əl atıb. Kubilay Göl daha çevik hərəkət edərək İsmayıl Gənci yaralayıb".

Faktla bağlı cinayət işinin açıldığı, 2013-cü il dekabrın 22-də Antalyadakı 4-cü Ədliyyə Hüquq Məhkəməsinə təqdim edilən iş üzrə ifadələrin alındığı da iddia olunur. Kubilay Göl istintaqa verdiyi ifadədə bildirib ki, Anar Məmmədov onu çağıraraq İsmayıl Gənci öldürməsini istəyib, amma o, bundan imtina edib. Kubilayın bildirdiyinə görə, Anar Məmmədov bu qətl üçün ona 500 min dollar təklif edib. Anar Məmmədov hesab edirmiş ki, İsmayıl Gənc onun Türkiyədən Azərbaycana köçürdüyü qara pullardan oğurlayırmış. Kubilay Göl deyib ki, İsmayıl Gənci öldürməkdən imtina etsə də bir müddət sonra onunla üz-üzə gəlməli olublar: "Pul oğurluqları ilə bağlı məsələni müzakirə etmək üçün İsmayıl Gənclə Antalyadakı "əski sənaye" deyilən yerdə görüşdük". Tərəflərin mübahisəsi silahlı qarşıdurmaya qədər böyüyüb: "Mən vurmasam, o məni vuracaqdı". Kubilay Göl bildirib ki, bu mübahisəni Bakıda da yatırmaq üçün çox cəhdlər olub və işə hətta Azərbaycan Daxili İşlər Nazirliyindən olan adamlar da qarışıblar. Kubilay Göl əvvəllər məhkum olunmayıb, Türkiyədə "özəl tim" adlanan xüsusi təyinatlı qüvvələrdə serjant olub. Sonra Anar Məmmədovun Türkiyədəki projeləri üçün xüsusi heyət topladığını eşidərək, istefa edib və onunla işləməyə başlayıb. Anar Məmmədovun mühafizə xidmətində 2 il yarım işləyib.

Onu da vurğulayaq ki, Türkiyənin "Hürriyet" qəzeti bu məsələyə bir neçə dəfə toxunub. 2013-cü il iyulun 17-də Yalçın Bayer köşə yazısından bu olayı belə təsvir edib. Dünən yazdığımız kimi, nazir oğlu ilə bağlı Türkiyə mediasında gedən yazıların daha bir özəlliyi isə onların qısa sonra ya təkzib edilməsi, ya da saytlarda "qeybə" çəkilməsidir. Yalçın Bayer yazının dərcindən iki gün sonra Anar Məmmədovun vəkilinin təqdim etdiyi təkzibi də köşəsinə əlavə edib. Təkzibdə Anar Məmmədov Britaniyada yüksək təhsil alan parlaq gənc kimi təqdim edilir. Anar Məmmədovun mühafizəçilərinin silahlı qarşıdurması haqqında sonuncu yazı isə bir neçə saat sonra hürriyet.com saytından çıxarılıb.

Xatırladaq ki, ötən il mətbuat bu barədə yazılara A.Məmmədovun rəhbəri olduğu "Garant Holding"in hüquqşünası Ruslan Məmmədovun münasibətini öyrənmişdi. R.Məmmədov bildirmişdi ki, "Hürriyet" qəzetində gedən məlumatlar həqiqətə uyğun deyil və tamamilə yanlışdır. Hüquqşünas Anar Məmmədovun "Çırağan" Sarayında milyon dollarlıq ziyafət verməsi, eləcə də Bodrum yaxınlığında 40 milyon dollar dəyərində bir adanı satın alması barədə yazılanların da həqiqətə uyğun olmadığını vurğulamışdı.

R.Məmmədov Türkiyənin "Hürriyət" qəzetinin A.Məmmədovla bağlı dərc etdiyi yazını təkzib etdiyini də Musavat.com-a bildirmişdi. Onun sözlərinə görə, Türkiyə qəzeti həqiqətə uyğun olmayan xəbəri təkzib etdiyindən, məhkəmə perspektivi olmayacaq.

A.Məmmədovun vəkilləri ilə danışmaq istədik. Nazir oğlunun vəkili Ruslan Məmmədov telefon zənglərimizə cavab vermədi.

Amma Ruslan Məmmədov Axar.az-a bildirib ki, Anar Məmmədovun adı ilə bağlanan qətlin təfərrüatı ilə bağlı yaxın günlərdə mətbuata açıqlama veriləcək.

R.Məmmədov yaxın günlərdə mətbuata geniş məlumat veriləcəyi üçün əlavə açıqlamaya indidən heç bir ehtiyac görmədiyini bildirib: "Yaxın günlərdə bununla bağlı ətraflı məlumat veriləcək. Həmçinin məsələ ilə əlaqədar lazım olan bütün hüquqi addım atılacaq".

***

**Bəs, sözügedən cinayət hadisəsində iştirakı təsdiqlənərsə, nazir oğlunu nə gözləyə bilər?**

Hüquqşünas Müzəffər Baxışov deyir ki, hadisə Türkiyədə baş verdiyi üçün A.Məmmədov məhz bu ölkədə məsuliyyətə cəlb olunmalıdır: "Türkiyə Cəza Məcəlləsinə görə, onu cinayət məsuliyyətinə cəlb edə bilərlər. Amma Anar Məmmədov Azərbaycan vətəndaşı olduğu üçün onu Türkiyə Azərbaycan dövlətindən istəsə də, bizim ölkə konstitusiyanın müddəalarına görə, Anar Məmmədov Türkiyə Cümhuriyyətinə verilə bilməz. Lakin onun əməlində kifayət qədər sübutlar olsa, həmin cinayət işi Azərbaycan Respublikasına göndərilməlidir. Əgər həqiqətən həmin şəxs Anar Məmmədovun sifarişi ilə qətlə yetirilibsə, onda onun əməli AR CM-nin 120.2.5-ci maddəsi ilə, yəni sifarişlə adamöldürmə kimi tövsif olunacaq. Bizim Cinayət Məcəlləsinin 120.2.5-ci maddəsinə görə, bu əməllərə görə də 14 ildən 20 ilədək və ya ömürlük azadlıqdan məhrumetmə cəzası nəzərdə tutulub. Yəni hər bir halda bu məsələ sübut olunmalıdır".

M.Baxışov deyir ki, ola bilər cinayət işinin istintaqı zamanı digər hallar da ortaya çıxsın: "Ola bilsin ki, həmin cinayətin ört-basdır edilməsi üçün Türkiyə Cümhuriyyətində kimlərəsə rüşvət verilməsi, yaxud digər hallar müəyyən edilsə, yenə də bizim Cinayət Məcəlləsinin müddəalarına görə, əgər bu barədə sübutlar olarsa, həmin şəxs digər maddələrlə, yəni rüşvət verməyə cəhd, yaxud rüşvət verməyə görə də məsuliyyətə cəlb edilə bilər. Amma hər bir halda bu əməl üçün kifayət qədər sübutlar olmalı və əməl sübuta yetirilməlidir".

**Son illər Məmmədovların ətrafında müəmmalı qətllər baş verir. Bu ilin iyul ayında Anar Məmmədovun rəhbərlik etdiyi "Qarant Holdunq"ə daxil olan "Qarant Sığorta" ASC-nin İdarə Heyətinin üzvü Natəvan Əliyevanın meyiti yaşadığı mənzilində tapılmışdı. Bir neçə il öncə isə Ziya Məmmədovun mühafizəçisi Eldəniz Qurbanovu yaşadığı binanın qarşısında güllələnərək qətlə yetirilib.**

❑ **Vüqar MURAD**

YENİ MÜSAVAT
N 269 (5978) 1 noyabr 2014

**Rusiya prezidenti Vladimir Putinin xəstələnməsi haqqında ABŞ mətbuatın yaydığı xəbərlər Azərbaycan oxucularını da maraqlandırmaqda, onların bəzi kəsimini isə narahat etməkdədir. Doğrudur, bu xəbər Rusiya prezidentinin mətbuat xidməti vasitəsi ilə təkzib olundu. Lakin bu təkzib istər Qərb, istərsə də yerli mətbuatda bu mövzuda gedən xəbərləri dayandırmadı.**





# "Putinin sağlamlığına çox adam həsəd apara bilər"

## İlham Rəhimov: "Onunla bu yaxınlarda görüşmüşəm..."

Ona görə də "Yeni Müsavat" qəzetinin müxbiri bu mövzuda mötəbər hesab olunan, V. Putini yaxından tanıyan hüquq elmləri doktoru, professor İlham Rəhimova müraciət edib:

***- İlham müəllim bir çox KİV-lərdə Rusiya prezidenti V.Putinin səhhəti haqqında müxtəlif məlumatlar yayılmaqdadır. Bu suala Siz cavab verməyə də bilərsiniz. Lakin onu yaxından tanıyan bir şəxs kimi, Sizin bu məsələyə münasibətiniz oxucularımız üçün maraqlı olardı.***

- Rusiya prezidenti Vladimir Putinin səhhətində problemlərin olması barədə məqsədyönlü şəkildə yayımlanan dezinformasiyalar yumşaq desək, "sarı mətbuatın" fantaziyasının məhsuludur, hansı ölkədə olmasından asılı olmayaraq. Onunla bu yaxınlarda görüşmüşəm, sağlamlığına çox adam həsəd apara bilər. Belə xəbərləri yayanların mövqeləri bəllidir, heç bir əxlaqa sığmır. El arasında belə hadisələrə dair çox müdrik misallar mövcuddur, açıqlamağı məqsədə uyğun hesab etmirəm. Həyat davam edir ..... Mən bu fikirləri ona yaxın olduğum üçün demirəm, ictimaiyyət həqiqəti bilsə yaxşıdır.

❑ **Aygün MURADXANLI**

# Hüquq müdafiəçiləri İşçi Qrupla bağlı açıqlama verdilər

## Novella Cəfəroğlu: "Azərbaycanda bir siyasi məhbus qalsa belə bu, problemdir"

**Ölkədəki insan haqları pozuntuları və siyasi məhbuslarla bağlı fəaliyyətini bərpa edən İşçi Qrup oktyabrın 31-də növbəti iclasını keçirib.**

Musavat.com-un xəbərinə görə, tədbir zamanı işçi qrupda təmsil olunan hüquq müdafiəçiləri mətbuat üçün ilk açıqlamalarını veriblər.



**Hüquq müdafiəçisi Sahib Məmmədov** bildirib ki, İşçi Qrupun bərpasına aqressiv münasibətin olacağı gözlənilən idi. O, işçi qrupun tərkibinin dəyişdiyini də diqqətə çatdırıb: "İlk iclasımızı bir neçə gün əvvəl keçirdik. Bu qrupa aqressiv münasibəti başa düşürük. Kimlərəsə siyahının başında məşhur adamlar lazımdır, onlara bəzi adamlar bəzəkli siyahı üçün lazımdır, azadlıqda deyil. Biz isə hesab edirik ki, belə siyahılar ümumiyyətlə olmamalıdır. Biz düşünürük ki, kolleqalarımız azadlıqda olmalıdır və fəaliyyətlərini davam etdirməlidir".

**Hüquq müdafiəçisi Novella Cəfəroğlu** isə deyib ki, İşçi Qrupun tərkibində həbsdə olan hüquq müdafiəçilərini də görmək istəyərdilər: "Biz öz dostlarımızı, kolleqalarımızı, həmkarlarımızı sözsüz ki, həbsdən çıxaracağıq. Buna çalışırıq. Biz İntiqam Əliyevi, Rəsul Cəfərovu, Emin Hüseynovu İşçi Qrupun içində görmək istəyərdik. Bizə keşiş Qaponluq etməsinlər, provokasiyaya getməsinlər. İmkan versinlər bir müddət, bir neçə ay addımlarımızı ataq, işimizi görək, sonra münasibət bildirsinlər".

**O deyib ki, İşçi Qrupun işləməyəcəyini demək doğru deyil:** "İşləmirlər, işləməyəcəklər demək çox gülüncdür. Bizim cəmiyyət arasında da, beynəlxalq təşkilatlar arasında da nüfuzumuz çox yüksəkdir. İşçi Qrupla bağlı, qrupu dəstəkləməmək üçün həbsdəkilərə ərizə yazdırmaq əxlaqsızlıqdır. Sonra həmin adamların ərizəsini Avropa Şurasına göstərmək də. Bizi onlar da tanıyırlar. Bu gün İşçi Qrupunu yaratmışıq ki, hüquqları pozulan, qanunsuz həbsə atılan insanları oradan çıxaraq. Ona görə lazımdır ki, əl-ələ verib işləyək".

**Hüquq müdafiəçisi Səadət Bənənyarlı** isə deyib ki, onların budəfəki fəaliyyəti daha geniş çərçivəni əhatə edir: "Hamı dialoqdan danışır. Bu da dialoq deməkdir. Dialoqa həmişə ehtiyac var".

**Səidə Qocamanlı isə qeyd edib ki, zaman-zaman hər hansı müsbət ənənəyə qarşı çıxanlar olub. Bu səbəbdən İşçi Qrupla bağlı deyilən mənfi fikirləri diqqətə almamaq lazımdır:** "Yeni yaranan qrup yalnız öz işi ilə, ortalığa çıxaracağı nəticə ilə göstərəcək ki, biz haqlıyıq, biz işləyirik. Biz düşünürük ki, işçi qrupun əleyhinə imza atan məhbuslar buna təhrik ediliblər. O imzatoplama sabun köpüyü kimi bir şeydir. Biz vaxtımızı itirməyəcəyik, İşçi Qrupuna daxil olan hüquq müdafiəçiləri vaxtlarını, enerjilərini belə "razborkalara" sərf etməyəcək".

**Onun sözlərinə görə, noyabrın ortalarında İşçi Qrup növbəti iclasını keçirəcək:** "İstəyirik ki, sonda təqdim edəcəyimiz siyahıda adları olacaq şəxslər bu il azadlığa buraxılsın. Avropa Şurası Nazirlər Kabinetinə Azərbaycanın sədrlik müddəti bitir. İstəyirik ki, heç olmasa o vaxta qədər siyahımızdakı adamlar azadlığa buraxılsın. Biz gərgin işləyirik, son bir həftədə hər gün toplaşırıq. O insanların taleyi ilə oynamaq, o siyahının üstündə ad-san qazanmaq olmaz. Bizi maraqlandırmır ki, əleyhimizə olan siyahıya kim qol çəkib. Avropa Şurasını da o maraqlandırır ki, kimlər azadlığa çıxacaq".

**Novella Cəfəroğlu isə qeyd edib ki, Azərbaycanda bir siyasi məhbus qalsa belə, bu, problemdir:** "Biz bu problemi həll etməliyik". S.Məmmədov isə bildirib ki, hökumətlər problem yaradır, vətəndaş cəmiyyətinin də borcudur ki, həmin problemlərin həllinə çalışsın və nail olsun

**Mirvari Qəhrəmanlı** isə deyib ki, İşçi Qrupun təkcə siyasi məhbuslarla bağlı deyil, digər məhbuslarla bağlı cəhdləri də alqışlanmalıdır. Onun fikrincə, nəticəni görmədən iş görülmədiyini demək yanlış addımdır.

**S.Məmmədov həmçinin bildirib ki, Avropanın bir neçə təşkilatı Azərbaycanla və regionla bağlı vəsaitlər udub:** "Onların burada partnyorları var, çox böyük vəsaitlər gəlir. Bunların başında duran adamlar var. Onlar bu proseslərdə maraqlı deyillər. Bunların koordinasiyası da Xədicə İsmayıla tapşırılıb. Vəziyyətin gərgin olmasında, həbslərin artmasında maraqlı olan qüvvələr var. İşçi Qrupla bağlı da plan belə idi ki, çalışmaq lazımdır ki, qrupun yaradılması alınmasın, alınarsa onu içəridən idarə etmək üçün öz adamları bu qrupa nümayəndə olsun, bu da baş tutmazsa, onu gözdən salmaq kampaniyası aparılsın. Artıq proses üçüncü mərhələdədir".

**Hüquq müdafiəçiləri bildiriblər ki, İşçi Qrupun növbəti iclası noyabrın ortalarında keçiriləcək.** Bunun üçün işçi qrup gərgin şəraitdə işləyir və hər gün iclas keçirərək ərizələri, sənədləri müzakirə edir.

**Qeyd edək ki, Azərbaycanda insan haqları pozuntuları və siyasi məhbuslarla bağlı fəaliyyətini bərpa edən işçi qrup Avropa Şurasının baş katibi Torbörn Yaqlandın təklifilə bərpa edilib.**

❑ **Röya RƏFİYEVA**
**Fotolar müəllifindir**

# SSRİ-də daha xoşbəxt olanlar



**Zahid SƏFƏROĞLU**
zsafaroglu@gmail.com

## "5-ci kolon" haqda bir daha...

**Tanınmış aktyor, xalq artisti Rasim Balayev son müsahibəsində SSRİ dövründə daha xoşbəxt olduğunu dilə gətirib. Müsahibədən aydın olur ki, söhbət təkcə iş-gücsüzlüklə yox, həm də dolanışıqla bağlıdır. Halbuki, özünün dediyi kimi, prezident ona ev də verib, prezident təqaüdü də alır. Di gəl... müstəqil Azərbaycanda psixoloji durum sənətçinin sıxır, qəlbinə ağırlıq verir.**

Təbii, Rasim Balayev tək deyil. Onun kimi düşünən orta və yaşlı nəsil nümayəndələri kifayət qədərdir. Lakin SSRİ-yə nostalji keçirənlərin heç də hamısı Rusiyayönlü "5-ci kolon"u təmsil də eləmir. Rasim Balayev də çətin ki, bu təsnifata uyğun gəlsin.

Ancaq gələnlər yetərincədir. Ən qorxulusu isə odur ki, onların arasında SSRİ-ni görməyən, müstəqillik dövründə doğulan gənclər var. Gəncliyi ictimai proseslərin əsas hərəkətverici qüvvəsi satsaq, müstəqilliyə təhdidin nə dərəcədə real olduğunu anlamaq müşkül olmaz.

Bəs, cavan nəsildə SSRİ-yə xiffət hissi haradandır? Axı, hər necə olmasa, çoxdan tarixə gömülmüş Sovetlər Birliyi ölkə televiziyasında, tədris ocaqlarında təbliğ olunmur. Olmaya İŞİD-sayağı təbliğatdır gənc beyinləri dumanlandıran?

Cavab qənaətimizcə, belədir: bu, nə İŞİD-sayağı təbliğatdır, nə də rusiyalı emissarların və ya Rusiya KİV-lərinin ölkəmizdəki təşviqatının nəticəsi, bu, SSRİ-ni görmüş, 23 ildir "yağışdan çıxıb yağmura düşmüş" narazı valideynlərin söylədikləri ilə acı gerçəyin uzlaşmasıdır.

Yəni ata-ana ürək ağrısı ilə danışır, yeniyetmə də reallığa baxaraq eşitdiyinə qiymət verir. Üstəgəl, sovet dövrü ilə bağlı internetdə axtarış verib tapdıqları da valideynlərinin nə dərəcədə haqlı olduğuna onda əminlik formalaşdırır.

Bəs, qorxunc tilsimi, Azərbaycan dövlətçiliyinin təməlini qazıyan və Rusiyaya gözəl müdaxilə şansı verən bu problemi necə neytrallaşdırmaq olar? Cəhd edək.

Deyirlər, insan xəstələnməyincə, sağlamlığın qədrini bilmir, onu necə gəldi xərcləyir. Müstəqillik də elə - onu itirəndə, itirmək üzrə olanda daha qiymətli olur, dəyərə minir. Ona görə də nə qədər çətin də olsa, şüurlu toplum öz müstəqilliyini, azadlığını heç nəyə dəyişmir. Həm də o səbəbə ki, hər şey - həqiqi rifah, inkişaf müstəqillikdən başlayır, bir şərtlə ki, ölkə sükanı arxasında ədalətli, legitim bir qüvvə dayansın.

Ancaq indi bu qüvvə ürəyimizcə deyil deyə, azadlıqdan imtina etməyə də dəyməz. Zira, hakimiyyətlər, hökumətlər gəldi-gedərdi, - YAP iqtidarı da günün birində tarixə qovuşacaq, - fəqət müstəqillik həmişə gəlmir, həmişə verilmir, həmişə alınmır...

Azərbaycan Xalq Cümhuriyyətini yada salaq, onu quran böyük kişilər, Məmmədəmin Rəsulzadə hansı əzablara, əziyyətlərə qatlaşmadılar, lakin Cümhuriyyətin bərpası 70 il sonra mümkün oldu. Qısası, olanımızın qədrini bilək və eyni zamanda arxayınlaşmayaq, gəncliyi düzgün yola yönəltməyi bacaraq.

Bu missiya isə hakimiyyətlə yanaşı, SSRİ-ni görmüş sıravi valideynlərin də üzərinə düşür. Olsun, gənc övladlarınıza o dövrün yaxşını da deyin, amma qutsal, toxunulmaz olanları da söyləyin, toplum, xalq olaraq qazandığımız əsas sərvətimizi - müstəqilliyimizin əhəmiyyətini də anladın, mahiyyətini aşılayın; bu yolda millət olaraq nə qədər şəhid verdiyimizi, məhrumiyyətlər çəkdiyimizi də başa salın, yönəldin; "20 Yanvar"ı xatırladın, M.Ə. Rəsulzadənin, Nəsib bəy Yusifbəylinin, Əlimərdan bəy Topçubaşovun, digər böyük və tarixi şəxsiyyətlərimizin ibrətamiz həyatını oxumağı tövsiyə edin onlara.

**Bunlar olacaqsa, Rusiyanın ölkəmizdəki virtual və təhlükəli dayağı - "5-ci kolon" da olmayacaq - dolanışıq yaxşı olmasa belə. Guya müstəqil Rusiyada insanların rifahı çox yüksəkdir?**



**Cavid Hacıbəyli:** "Bu ona hesablanıb ki, aktiv vətəndaşların aksiyalardakı iştirakı məhdudlaşsın"



**Səxavət Əlisoy:** "Onu tətbiq etsələr, güman ki, bəzilərinin bağrı çatlayacaq"

# Müxalifət iqtidarın elektroşokundan qorxurmu?

**Xəbər verdiyimiz kimi, Azərbaycanda polis əməkdaşlarına elektroşok qurğusundan istifadə etməyə icazə verilib. Bu məsələnin gündəmə çıxması ilə mediada elektroşok olayının müxalifətə hesablanması ilə bağlı fikir yarandı. Belə ki, ictimaiyyət polisin gələcəkdə bu alətlərdən müxalifətin etiraz aksiyalarında, piketlərində ciddi silah kimi istifadə edəcəyi ilə bağlı təxminlər yürüdür.**

Biz müxalifət düşərgəsi bu barədə nə düşünür?

**Vətəndaş Həmrəyliyi Partiyası Mərkəzi İcra Aparatının rəhbəri Samir Əsədli** hesab edir ki, dünyada hüquq və azadlıqların təmin olunması üçün mütərəqqi addımlar atılır. Müsahibimiz buna misal kimi hətta Avropa türmələrində məhbusların saxlanma şərtlərinin yaxşılaşdırılması üçün atılan addımları yada saldı: "Qanuna elektroşokun salınması hakimiyyətin avtoritarizmini sürətləndirir. Bu ona hesablanıb ki, aktiv vətəndaşların, siyasi partiyaların aksiyalardakı iştirakı məhdudlaşsın. Hesab etmirəm ki, qanunların sərtləşdirilməsi müxalifətin fəallığına təsir edəcək. Polis vətəndaşlar, seçki orqanları üçün çalışmalı, ölkədə demokratiyanın təminatı üçün lazımi addım atmalıdır. Amma indiki hakimiyyətdə olanlar qanunu özləri üçün tətbiq edirlər".

**S.Əsədli bildirdi ki, bu, geriləmə, avtoritarizmə doğru bir addımdır. Müsahibimiz dünyanın inkişaf etdiyi bir dönəmdə Azərbaycanın bir addım geriləməsini təəssüflə qarşıladı:** "Bütün hallarda müxalifət öz fəaliyyətini və mübarizəsini davam etdirəcək. Qanunların sərtləşdirilməsi heç nəyi dəyişmir. Konstitusiya və onun maddələri var. İnsan azadlıq və hüquqlarını pozmaq olmaz. Qanun vətəndaşın xeyrinə olmalıdı".

**Müsavat Partiyasının gənc fəalı Cavid Hacıbəyli** isə bildirdi ki, elektroşokdan repressiya aparatı kimi istifadə olunacaq: "Mitinqlərdə, kütləvi aksiyalarda ehtiyac oldu-olmadı bundan istifadə oluna bilər və nəzərə alsaq ki, Azərbaycan polislərinə nəzarət azdır, onların atdıqları addımlar cəzasız qalır, odur ki, polislər də bundan özlərini yormadan istifadə edəcəklər. Necə ki, 2 aprel 2011-ci il mitinqində gözyaşardıcı qazan istifadə etmişdilər. Hansı ki, o da xüsusi təlimatlarla icra olunmalıdır. Bunların hamısı insanları kütləvi aksiyalara qatılmaqdan qorxutmaq üçündür, onları çəkindirmək üçündür. Hakimiyyətin fikirləşdiyi, qəbul etdiyi bu tip yeni qərarlar və humanizm prinsiplərinin əleyhinə olan addımlardır. Təbii ki, yaxşı qiymətləndirmirik, bu metodların tətbiqindənsə cəmiyyətlə, müxalifətlə dialoq aparmalıdırlar, mitinqlərə geniş meydanlarda yerlər verilməlidir, bu daha yaxşı nəticələr verə bilər nəyin ki, elektroşok cihazının tətbiqi. Elektroşok cihazı söhbəti bizi qorxutmur, çünki, biz qanuni formada aksiyalar edirik, iştirak edirik. Azərbaycan hakimiyyətinə təklif edərdim ki, Qarabağı işğaldan azad etmək üçün düşmənə qarşı yeni-yeni silahlar alsınlar, istifadə etsinlər öz vətəndaşlarına qarşı yox".

**Müsavat Partiyası başqanının keçmiş müşaviri Səxavət Əlisoy** da xatırlatdı ki, sivil dövlətlərdə cinayətkarlığa qarşı mübarizədə bu silahdan istifadə edilir. Onun sözlərinə görə, bəzi ölkələrdə mülki şəxslərin belə bu silahı gəzdirməsinə icazə verilir: "Bu vasitədən etiraz aksiyalarında istifadə olunur. Azərbaycan polisinin müxalifətin gözünü qorxutmaq üçün elektroşokdan istifadə edib-etməyəcəyini yaxınlarda inşallah, görəcəyik. Bir də ki, zatən qorxu içində yaşayana bu vasitənin tətbiqi yerinə düşmür. Onu tətbiq etsələr, güman ki, bəzilərinin bağrı çatlayacaq".

**Müsahibimiz hökumətin bu addımına qarşı müxalifətin hər hansı etiraz addımı ola bilərmi sualını da cavablandırdı. Dedi ki, etiraz aksiyası yox, amma bir dəyirmi masanın keçirilməsi, müvafiq qurumlardan arayış tələb etmək daha faydalı olar:** "ATƏT-Bakı Bürosu açıqlama verməlidir. Bütün bunlar səmərə verməsə aksiya da pis olmaz. Aksiya pərəstişkarlarına tətbiq olunduğu halda tibbi fəsadları açıq ortaya çıxacaq".

❑ **Sevinc TELMANQIZI**

## Azərbaycanda görünməmiş hadisə

# İcra başçıları nazirin verdiyi əmri geri oxutdurdular - nonsens

### Rayon təhsil şöbələrinin ləğvi və Regional Təhsil İdarələrinin yaradılması barədə qərarın təxirə salınmasının ilginc səbəbləri; Təhsil şöbələrinə "yağlı tikə" kimi baxan yerli məmurlar şok dirəniş göstərib və 15 dekabrda icra olunacaq təhsil islahatını tormozlayıb




**2015-ci ilin yanvarın 1-dən Regional Təhsil İdarələrinin yaradılması barədə təhsil naziri cənab Mikayıl Cabbarovun imzaladığı əmrin təxirə salınmasının şok təfərrüatları ortaya çıxıb. Söhbət ölkədəki rayon təhsil şöbələrinin ləğvinin əvəzində müvafiq qurumların yaradılması barədə nazirin imzaladığı əmrdən gedir.**

Qeyd edək ki, təhsil naziri ötən ay müəllimlərin mükafatlandırılması ilə bağlı keçirilən tədbirdə qərarın təxirə salınmasının səbəbi kimi maliyyələşmə probleminin olduğunu önə çəkmişdi. M. Cabbarov 16 oktyabr toplantısında bildirib ki, Milli Məclisə təqdim olunan gələn 2015-ci ilin dövlət büdcəsində Regional Təhsil idarələrinin yaradılması üçün müvafiq vəsait nəzərdə tutulmadığı üçün yeni sistemə keçid ertələnib. Odur ki, növbəti ildə də rayon təhsil şöbələri ənənəvi şəkildə fəaliyyətini davam etdirəcək. Hansı ki, cəmi bir ay öncə cənab Cabbarov təhsil şöbələrinə "yır-yığış" etməkdən ötrü 15 dekabra qədər vaxt vermişdi. Sözügedən məsələ gündəmə gələndən yerli şöbələrdə bir süstlük yaranmışdı və minlərlə təhsil işçisi işsiz qalacaqlarından dolayı dərin bədbinlik içindəydilər. Ancaq kimsə cəsarət edib işsizlik fəlakəti ilə bağlı perspektivə açıq etiraz etməyi xəyalına belə gətirmirdi. Həm də ümidlər sona qədər ölməmişdi və "şöbələr yəqin ki, tam ləğv olunmayacaq, heç olmasa 5-10 nəfərlik heyət saxlanılacaq" tipli gözləntilər də var idi. Ancaq təhsil naziri qəfil bəyan etdi ki, qərarın icrası təxirə salınır, özü də qeyri-müəyyən müddətə. Bu isə təhsil şöbələrində toy-bayram ovqatının yaranmasına səbəb olub.

**Bəs, əslində nə baş verib?**

Hansı güclü qüvvədir ki, ən yüksək səviyyədə dəstək alan nazirin əmrini geri oxutdura bilib? Yeri gəlmişkən, təhsil naziri şöbələrin ləğvi ilə bağlı qərarı verərkən prezident sərəncamına istinad etmişdi. 24 iyul 2014-cü il tarixdə imzalanan "Azərbaycan Respublikası Təhsil Nazirliyinin strukturunun təkmilləşdirilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı"nda deyilirdi: "Azərbaycan Respublikası Təhsil Nazirliyinin strukturunu təkmilləşdirmək məqsədi ilə, Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq qərara alıram: Azərbaycan Respublikası Təhsil Nazirliyinin aşağıdakı regional idarələri yaradılsın..." Diqqətinizə çatdıraq ki, dövlət başçısı Azərbaycan Təhsil Nazirliyinin strukturunu təkmilləşdirmək məqsədi ilə nazirliyinin 15 regional idarələrinin yaradılmasını qərara alıb.

**Amma budur, qərarın icrası təxirə salındı. Təhsil nazirinin səbəb kimi maliyyələşməni göstərməsini bir sıra ekspertlər inandırıcı arqument saymır.** Hesab olunur ki, maliyyə naziri Samir Şərifov prezident sərəncamı ilə icrası nəzərdə tutulan proqramı maliyyələşdirməkdən imtina edə bilməzdi.

On illərdir fəaliyyət göstərən təhsil şöbələrinin yerinə qısa müddətdə Regional Təhsil Şöbələrinin yaradılmasının mümkün olmaması fikri də ciddi səbəb kimi qəbul edilmir. Bu barədə "Yeni Müsavat"ın əldə etdiyi bilgilər isə heyrətamizdir. Etibarlılığına heç bir şübhəmiz olmayan məlumatlı mənbənin bildirdiyinə görə, naziri əmrini geri oxutmağaErayon icra başçıları vadar edib! Konkretləşdirsək, hesab olunur ki, icra başçıları onların "təhsil bazarı"na ağır zərbə vurmağı planlaşdıran nazirin islahatlar istiqamətində çox ciddi bir addımı atmasına son anda imkan verməyib. Hətta rayon təhsil şöbəsinin müdirini təyin etməklə bu sektorun işinə müdaxilə edən icra hakimiyyəti başçıları sözsüz ki, məsələni sakit qarşılaya bilməzdi.

**Məlumata görə, təhsil şöbələrinə "yağlı tikə" kimi baxan icra hakimiyyətinin başçıları bu sektorun nəzarətdən çıxarılması üçün düşünülən "məxməri inqilab"ın gerçəkləşməsini əslində özlərinə vurulan zərbə kimi qəbul etdikləri üçün prosesin tormozlanması naminə var qüvvələri ilə çalışıblar.** Mənbə iddia edir ki, bu etirazlar kütləvi və mərkəzləşmiş qaydada həyata keçirilsə də, məxfiliyin maksimum qorunması üçün çalışılıb. Xüsusilə də hakimiyyət olimpində güclü dayaqlara malik nazirlərə birbaşa çıxışları olan, həmçinin "avtoritet" kimi tanınan başçılar bu prosesdə öndə olublar. Onların arasında "onsuz da bələdiyyələrdən sonra bizim taleyimiz hər an sual altındadır, yeganə nəzarət etdiyimiz sahə təhsildir, o da əldən çıxandan sonra biz kimə lazımıq? Bundan sonra rayonda bizi saya salan da olmayacaq" deyə, umu-küsü edənlər də tapılıb. İddiaya görə, hətta icra başçıları arasından, qarşıdan bələdiyyə və parlament seçkilərinin gəldiyini xatırladıb: "Biz seçkidə işimizi əsasən təhsil şöbələri, müəllimlərlə birgə görürük, bizə tabe olmayandan sonra kim bizi eşidəcək", - kimi şantaj mövqeyindən çıxış edən də tapılıb. Nəticə də bəlli, icra başçıları qələbə çalıb.

**Xatırladaq ki, yeni sistemə keçidlə bağlı qərarın olduğu ərəfədə hətta hakimiyyətyönlü təhsil ekspertləri bu sərəncamın hökmən öz müsbət nəticəsini verəcəyini bildirirdilər.** "Ona görə ki, rayon təhsil şöbələri rayon icra hakimiyyətlərinin təsiri altından çıxacaq. Çünki icra hakimiyyətləri üçün toyxana necədirsə, təhsil şöbəsi, məktəb də odur. Çox şükür ki, təhsil şöbələri icra hakimiyyətlərinin nəzarətindən çıxdı və azad fəaliyyət göstərəcək. Azadlıq olan yerdə də uğur həmişə olacaq", - bunu sabiq deputat Şahlar Əsgərov demişdi. Hazırda 38 yaşı olan M.Cabbarovun ötən ilin aprelində təhsil naziri təyin olunmasına bir sıra müşahidəçilər fərqli yanaşırdı. Ancaq gənc nazirin təhsil sahəsindəki neqativlərə qarşı bir sıra hallarda cəsarətli mövqe nümayiş etdirməsi, "əvəzolunmaz" kadrları belə uzaqlaşdırıb yeni simaları təhsil sektoruna cəlb etməsi, həmçinin yerlərdə vətəndaşlarla açıq ünsiyyəti ilə diqqəti cəlb etməsi nazirə olan etimadın artmasına rəvac verdi. Onun təhsili icra başçılarının əsarətindən xilas layihəsi də pozitiv qarşılanırdı. Di gəl ki, proseslər əksinə cərəyan edir...

**Mənbəmizə xitabən bir az əvvəlki proseslərə ekskurs edək. Məlumata görə, təhsil naziri Mikayıl Cabbarov təyinatının ilk günlərindən hətta sələfi Misir Mərdanovun da bir neçə dəfə etiraf etdiyi problemdən, rayon təhsil şöbələrini icra başçılarının monopoliyasından xilas etməyin yollarını arayırmış.** Məhz elə buna görə də nazir M.Mərdanovun dövründə tətbiqinə başlanılan müəllimlərin işə qəbulu prosesinin vahid test imtahanları yolu ilə məhz Təhsil Nazirliyi tərəfindən işə götürülməsi barədə qaydanı saxlamağa qərar verib. Bu imtahanlar isə ümumtəhsil məktəblərindəki vakant yerlərdə işləmək istəyən xeyli sayda müəllimin icra hakimiyyətlərinə ayaq döymədən işə qəbul olunmasına "yaşıl işıq" yandırıb. Mənbənin sözlərinə görə, təhsil sektorunu icra hakimiyyətlərinin birbaşa müdaxiləsindən xilas etmək üçün M. Cabbarov bir neçə ay öncə prezidentə konkret təkliflərini göndəribmiş. Ölkə başçısı təklifləri təqdir edib və müvafiq araşdırmaların aparılması üçün müvafiq qurumlara göstəriş verib, nəticədə sözügedən sərəncam reallaşıb. Məlumatlı mənbə hesab edir ki, ölkə başçısının etimad etdiyi nazirə qarşı çıxmaqla bir sıra icra başçıları özlərinə ciddi problem yaradıblar. Yeni rəhbərlik indiki həssas situasiyada, xüsusi ilə də qarşıdakı seçkilərə görə, onların mövqeyini nəzərə alsa da, çox keçməyəcək onların bəziləri cəzasına çatacaq. Məlumata görə, Administrasiya rəhbəri cənab Ramiz Mehdiyevin sonuncu kadr xəbərdarlığı həm də icra başçılarına mesajdır.

**Görünən budur ki, indiki mərhələdə daş qayaya rast gəldi və "gənc islahatçı nazir" kimi tanınan, təhsilin inkişafı ilə bağlı mütərəqqi addımlar atmağı planlaşdıran M. Cabbarov rayon icra başçılarının müqaviməti nəticəsində müsbət addımını təxirə salmalı oldu. Ancaq nə vaxta kimi? Fakt budur ki, ortada prezident sərəncamı var və gec-tez məsələ həllini tapmalıdır.**

❑ **M. HÜSEYNLİ**

Azərbaycan Respublikasının Prezidenti yanında
Kütləvi İnformasiya Vasitələrinin İnkişafına
Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

Ermənistan-Azərbaycan,
Dağlıq Qarabağ münaqişəsi haqqında
həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması,
Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi



YENİ MÜSAVAT
N 269 (5978) 1 noyabr 2014



# Qarabağ probleminin həlli saxta "soyqırımın" 100 illiyinə keçir

## Gələn il Ermənistanı ram eləmək daha çətin görünür; lakin fors-major vəziyyətlər də istisna deyil - Rusiyanın ayağı "büdrəyə" bilər...; vasitəçilər işğalçını sıxmaq əvəzinə, niyə zamanın onun xeyrinə işləməsinə kömək edir?

**Prezidentlərin Paris görüşü Qarabağ məsələsində real irəliləyişə gətirmədi. Danışıqların yekununda gözlənildiyi kimi, heç olmasa, ortaq bəyanat da qəbul edilmədi. Bu günə hasil olan əsas qənaət bundan ibarət olsa da, ötən yazılarımızda vurğuladığımız kimi, bağlı qapılar arasında ümidverici bəzi məqamların müzakirə edildiyi də istisna olunmur.**




**Xüsusən də Azərbaycan tərəfinin danışıqlarda öz mövqeyində kifayət qədər israr göstərməsi, o sırada problemin həllinin yerindən tərpənməsi üçün ilkin mərhələdə işğal altındakı bir neçə rayonun boşaldılması zərurətini diqqətə çatdırması və Laçın dəhlizinin qarşılığında Naxçıvana da koridorun açılması təklifini irəli sürməsi haqda gələn informasiya ümidverici sayıla bilər. Həmçinin, Paris sammitində böyük sülh sazişi üzərində işə başlamağın vacibliyinin qeyd edilməsi başqa bir pozitiv detallardan hesab olunmalıdır.**

Lakin sadalanan müsbət nüanslara rəğmən, hələ ki, ilkin təəssürat belədir ki, vasitəçi dövlətlərin əsas hədəfi indi ən çox münaqişə zonasında yeni müharibənin alovlanmasını əngəlləməkdir. Bu da özlüyündə müsbət gəlişmədir. Ancaq əfsuslar olsun ki, ağır "Qarabağ yükü"nü yerindən tərpətməyə yetərli deyil.

***

Bu kimi bəzi başqa pozitiv detallar nəzərə alınmazsa, Paris müzakirələri belə bir qənaəti də qətiləşdirmiş oldu ki, problemin həllinə münaqişə tərəflərindən daha çox, məhz Minsk Qrupuna həmsədr dövlətlərin özləri hazır deyil. Doğrudan da, işğalçı Ermənistan hansı sözün, nüfuzun yiyəsidir ki, ixtilafın həllinə əngəl yarada bilsin?



Qarabağ probleminin həlli isə məhz bu marionet və cırtdan ölkənin güzəştlərindən başlamalıdır. Bunu Qərb də, Rusiya da anlayır. Deməli, siyasi iradə və istək olarsa, vasitəçi ölkələr məsələdə anlaşma əldə edə bilərlər. İrəvana təzyiq göstərib onu yola gətirmək çətin deyil, ola bilməz. Erməni tərəfinə təzyiqi indi hətta İran da edə bilər - təcavüzkar üçün açdığı "nəfəsliyi" müvəqqəti bağlamaqla.

Fransadakı müzakirələr nə Kremlin, nə də Vaşinqton və Parisin Dağlıq Qarabağa görə İrəvana təzyiq eləməyə hazırlaşmadığını, ən azı, buna hazır olmadığını nümayiş etdi. Beləcə hesab eləmək olar ki, regionun ən üzücü münaqişəsinin həlli gələn ilə - saxta "soyqırımın" 100 illiyinə saxlanılır. Yelisey Sarayındakı görüşlərdən doğan ən mühüm nəticələrdən biri də budur.

Prezidentlərin növbəti görüşünün təxminən bir il sonraya nəzərdə tutulması bu yöndə müəyyən narahatlıqlara əsas verir. Məsələ ondadır ki, gələn il erməni təbliğat maşını bütün gücü ilə qardaş Türkiyəyə, Azərbaycana qarşı işləyəcək. Bəlli səbəblərdən Qərb, o sırada ABŞ və Fransa da "əzabkeş xalqın" dərdlərinə daha həssas olacaq, Qarabağ problemi bir növ arxa plana sürüşdürüləcək.

Belə bir durumda Ermənistanın ərazilərin boşaldılmasında xırda bir kompromisə getməsi, yaxud Minsk Qrupu həmsədrlərinin ona effektli təzyiq edəcəyi çətin təsəvvürə gəlir. Əksinə, təzyiqlərin Azərbaycana, Türkiyəyə (sərhəd məsələsində) yönələcəyi daha real görünür.

Ola bilsin bu və digər səbəblərdən, yəni vaxtın bədnam yubileyədək uzadılması, ümumiyyətlə, zamanın işğalçıya işləməsi səbəbindən ermənilər Paris sammitini müsbət qiymətləndirirlər. Məsələn, erməni ekspertlərindən biri Bekaryan hesab edir ki, "Parisdə prezidentlərin göz-gözə görüşü danışıqlar prosesində tərəqqini göstərir. "Bu, həmçinin, etimadın müəyyən qədər artmasının və hansısa anlamda formal danışıqlardan məzmunlu danışıqlara keçidin sübutudur" - deyib o.

Onun sözlərinə görə, hətta pis danışıqlar prosesi silahlı qarşıdurmadan yaxşıdır: "Çünki qurulan təmas ümid yaradır ki, vəziyyətin eskalasiyası baş verməyəcək. Pozitiv fakt həm də odur ki, Paris görüşü vasitəçilik fəaliyyətində monopoliyanın olmadığını göstərdi. Rusiya, ABŞ və Fransanın təşəbbüsü ilə Azərbaycan və Ermənistan prezidentləri arasında reallaşan üç təmas Minsk Qrupu həmsədrlərinin balanslı və ölçülü-biçili siyasətindən xəbər verir"

***

Lakin vasitəçilikdə "monopoliyanın olmaması" heç nəyi dəyişmir və yenə də daha çox erməni tərəfin maraqlarına işləyir. Hər halda əraziləri illərdir işğal altında qalan Azərbaycandır, Ermənistan yox. Əksinə, bəlkə də hansısa güc mərkəzinin monopoliyası olsaydı, bu, ümumi işin xeyrinə olar, nizamlama prosesinə stabil bir dinamika verərdi.

Əslində Rusiya münaqişənin həllinə ən çox təsir imkanına malikdir. Nə yazıq ki, Kremlə münaqişənin dondurulmuş qalması daha sərfləlidir. Hətta Azərbaycanın Avrasiya layihələrinə qoşulmasının qarşılığında da rəsmi Moskva belə görünür, Qarabağ məsələsini kardinal şəkildə yoluna qoymağı vəd eləmir, yalnız - konservasiya! Ona görə ki, nə Ermənistanı, nə də ələlxüsus Azərbaycanı öz təsir dairəsindən buraxmaq istəmir.

O üzdən Moskva Paris görüşünün də nəticəsiz bitməsi üçün ermənilərin əli ilə nə mümkünsə, elədi. Söhbət ilk növbədə Xankəndində Azərbaycanlı mülki girovlar - Dilqəm Əsgərov və Şahbaz Quliyev üzərində Paris sammiti ilə eyni gündə saxta məhkəmə prosesinə start verilməsi kimi təxribatçı addımdan gedir.

Başqa bir analoji təxribatçı addım Paris danışıqları ərəfəsi Zəngilanda erməni uşaqlar üçün bağçanın istifadəyə verilməsidir. Azərbaycan XİN-in bu olaya da adekvat reaksiya verib. XİN-in mətbuat xidmətinin rəhbər əvəzi Hikmət Hacıyev prezidentlər səviyyəsində Parisdə keçirilmiş görüşün fonunda Ermənistanın bu addımı təxribat xarakteri daşıyan əməl adlandıraraq bildirib və erməni uşaqları üçün bağça açılan Zəngilanda heç vaxt ermənin yaşamadığına diqqət yönəldib: "1993-cü ilin 29 oktyabr tarixində Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunmuş Zəngilanda heç vaxt ermənilər yaşamayıb. Bu kimi addımlar bir daha ona dəlalət edir ki, Ermənistan işğal olunmuş Azərbaycan ərazilərini ilhaq etmək siyasəti yürüdür".

Mətbuat katibi onu da bəyan edib ki, işğal olunmuş ərazilərdə Ermənistan tərəfindən bu kimi fəaliyyətin aparılması 1949-cu il Cenevrə Konvesiyası və onun əlavə protokollarına birbaşa ziddir: "BMT Təhlükəsizlik Şurasının 1993-cü il 11 noyabr tarixli 884 saylı qətnaməsində Azərbaycanın Horadiz qəsəbəsinin və Zəngilan rayonunun işğal edilməsi pislənilir və işğalçı qüvvələrin həmin ərazilərdən dərhal, tam və qeyd-şərtsiz çıxarılması tələb olunur".

***

Əlbəttə ki, 2015-in uydurma iddianın yubileyinə təsadüf eləməsi heç də o demək deyil ki, proses yüzdə yüz Qarabağ probleminin konservasiyası istiqamətində, yaxud işğalçı Ermənistanın istədiyi ssenari üzrə gedəcək. Əlbəttə ki, bölgədə Qarabağ münaqişəsinə təcili şəkildə başqa yanaşmalar tələb edən fors-major vəziyyətlər də yarana bilər. O sırada təcavüzkar Ermənistanın əsas dayağı və himayəçisi olan Rusiyanın özünün beynəlxalq sanksiyalarla daha ağır duruma düşəcəyi, ayağının "büdrəyəcəyi" istisna deyil.

**Müxtəsəri, siyasətdə heç vaxt heç vaxt demək məqbul sayılmadığı kimi, Qarabağ məsələsində də sayılmaz. Odur ki, iki qardaş, strateji müttəfiq olaraq Azərbaycanla Türkiyənin yeni çağırışlara adekvat cavab verməsi üçün daha sinxron siyasət yürüməsinə ehtiyac var. Eyni zamanda onların hər ikisi üçün öz dost-müttəfiqlərinin qədrini bilmək və bu müttəfiqlərin sayını artırmaq zərurəti qabarıq şəkildə önə çıxacaq. Ona görə ki, daha ağır bir ilə giririk...**



# Kəlbəcərli girovların növbəti "məhkəmə prosesi" keçirilib

**İşğal altındakı Kəlbəcər rayonunda Qarabağ separatçıları tərəfindən girov götürülmüş Azərbaycan vətəndaşları Dilqəm Əsgərov və Şahbaz Quliyevə Xankəndində növbəti qondarma məhkəmə prosesi keçirilib.**

karabakhİNFO.com" Ermənistan mediasına istinadən xəbər verir ki, girovlar tək-tək "hakim" Anatoli Tadevosyanın qarşısına çıxarılaraq suallara cavab veriblər.

Xatırladaq ki, separatçı rejimin soydaşlarımıza qarşı təşkil etdiyi saxta məhkəmə oktyabrın 27-dən - Azərbaycan və Ermənistan prezidentlərinin Parisdə görüşdükləri gün başlayıb.

Girovlar məhkəmədə onlara qarşı irəli sürülən "casusluq" ittihamını rədd etdiklərini, işğal olunmuş Qarabağla Azərbaycan arasında sərhəd tanımadıqlarını bildiriblər.

Qeyd edək ki, "prosesdə" həmvətənlərimizin hüquqlarını erməni vəkil "qoruyur". Beynəlxalq hüquq-müdafiə təşkilatlarının nümayəndələrindən isə heç kim "məhkəməni" izləmir.



# Aşura gününün əməlləri

## Noyabrın 4-də Azərbaycanda Aşura qeyd olunacaq, əzadarlıq məclisləri, qanvermə aksiyaları keçiriləcək

**Noyabrın 4-də Azərbaycanda Aşura mərasimi qeyd olunacaq. Aşura - Hicri təqviminin ilk ayı olan Məhərrəm ayının 10-cu günüdür. Sözün ərəb dilindən tərcüməsi "onuncu gün" deməkdir. Hicri təqvimi ilə 61-ci ilin həmin günündə (miladi təqvimlə 680-ci il) Həzrət Məhəmməd Peyğəmbərin (s) əziz nəvəsi İmam Hüseyn (ə) öz yaxın qohumları və silahdaşları ilə Kərbəla səhrasında faciəli surətdə qətlə yetirilib.**

Bu münasibətlə hər il dünya müsəlmanları, Əhli Beyt tərəfdarları Məhərrəm ayında, xüsusən də Aşura günü matəm mərasimi keçirir, Kərbəla şəhidlərini yad edirlər. Azərbaycanda da hər il olduğu kimi bu il Aşura mərasimi qeyd olunacaq. Son illərin müsbət ənənəsinə uyğun olaraq bu il də Aşura günü qanvermə aksiyası təşkil olunacaq. QMİ-dən verilən məlumata görə, noyabrın 4-də Aşura günündə bir sıra məscid və ziyarətgahlarda qanvermə aksiyası keçiriləcək. Aksiya keçiriləcək məkanlar aşağıdakılardır:

**1.Yasamal rayonu "Təzə-pir" məscidi**
**2. Yasamal rayonu "Hacı Soltanəli" məscidi**
**3. Nəsimi rayonu Əjdərbəy məscidi**
**4. Səbayel rayonu "Bibi-Heybət" məscidi**
**5. Səbayel rayonu İçərişəhər cümə məscidi**
**6. Suraxanı rayonu Qaraçuxur məscidi**
**7. Xəzər rayonu "Mir Mövsüm ağa" məscidi**
**8. Nizami rayonu Keşlə qəsəbə məscidi**
**9. Sumqayıt şəhər "Cümə" məscidi**
**10. Gəncə şəhər "İmamzadə" məscidi**
**11. Mingəçevir şəhər "Heydər" məscidi**
**12. Şəki şəhər "Cümə" məscidi**
**13. Lənkəran şəhəri Böyükbazar məscidi**
**14. Bərdə şəhər "Cümə" məscidi**

Qeyd edək ki, Aşura günü müsəlmanlar bir sıra əməlləri yerinə yetirirlər. Aşuraya keçən gecə oyaq qalıb əhya saxlamaq, çox namaz qılmaq, dua etmək, Kərbəla şəhidlərinin müsibətini yada salmaq, xüsusilə, həmin gecə Kərbəlada susuz qalmış Əhli-beyt körpələrinin və qadınlarının vəziyyətini xatırlamaq, öz günahlarının bağışlanması üçün Allaha dua edirlər.

Dini kitablarda Aşura gecəsi qılınması tövsiyə olunan müstəhəb namazlar qeyd olunub. "Aşura gecəsinin müstəhəb namazını qılıram, qürbətən iləllah" niyyəti ilə 4 rikətlik namaz qılmaq, hər rükətdə Fatihədən sonra 50 dəfə İxlas surəsini oxumaq. Namazdan sonra isə 70 dəfə bu duanı demək: "Sübhanallahi vəl-həmdu lillahi və la ilahə illəllahu vallahu əkbər. Və la hövlə və la qüvvətə illa billahil-əliyyil-əzim". Tərcüməsi: "Allah müqəddəsdir. Allaha həmd olsun. Allahdan savayı tanrı yoxdur. Allah hər şeydən qüdrətlidir. Qüdrət və qüvvət yalnız uca və əzəmətli Allaha məxsusdur". Namazdan sonra Peyğəmbərə və nəslinə çoxlu salavat demək də tövsiyə edilib. Buna "Həzrət Əlinin namazı" deyirlər.

Aşura günündə İmam Hüseynin (ə) ziyarətnaməsini, "Aşura ziyarətnaməsi"ni oxumağın böyük savabı var. Həmin gün çoxlu dua, tövbə və istiğfar etmək tövsiyə olunub. Bu dua və ibadətlər müstəhəb, yəni bəyənilən əməllərdir.

Aşura günündə məscidlərdə, ziyarətgahlarda qurulan təziyə məclislərində iştirak etməyin savabı daha böyükdür. Bir şərtlə ki, həmin yerlərdə qurulan məclislər mövhumatdan və xurafatdan uzaq şəkildə, əsl İmam Hüseynə (ə) və Aşura şəhidlərinə layiq formada keçirilsin. Aşura gününün qeyd edilməsindən əsas məqsəd insanları ağlatmaq deyil, haqqa bağlılığın və məzlumlarla həmrəyliyin bir növüdür, zülmə qarşı etiraz formasıdır.

Aşura mərasimlərində iştirak edən insan İmam Hüseynin (ə) hansı məqsədlər uğrunda mübarizə apardığını öyrənməli, Onunla düşmənçilik edənləri tanımalıdır. Bu mərasimlərdə Kərbəla səhrasında baş vermiş rəngarəng hadisələrin təsvirini eşidir, şəhidlərin mübarizlik məktəbindən dərs alır. Aşura-Məhərrəmlik mərasimləri Kərbəlada şəhid olan İmam Hüseyn (ə) və tərəfdarları, eləcə də dünyada haqsızlığa uğrayaraq əziyyətlə öldürülən insanları anmaq məqsədi daşıyır. İmam Hüseynin (ə) şəhadəti və bütövlükdə Aşura olayları kiçik silahlı toqquşma deyil, haqq-batil qarşıdurması, ədalət naminə özünü və yaxınlarını qurban verə bilmək hadisəsidir. Mahiyyət etibarı ilə Aşura zalımlara qarşı dik dayanmaq, ən böyük ordunun qarşısında haqqı deyərək şəhid olmanın mükəmməl nümunəsidir. Kərbəla hadisəsi dünyada hakimlərin gəldi-gedər olduğu, dünyada əsas qalıcı olanın Allah razılığı və dürüstlük olduğunu göstərən əyani nümunədir.

❑ **Kənan RÖVŞƏNOĞLU**

# "ASAN xidmət"in Sumqayıt bölməsinin rəhbəri sələfidir?

## Hökumətin ən parlaq layihəsinə vəhhabi təhdidi var; ölkənin 3-cü böyük şəhərinin "ASAN"ının rəisinin sələfi olması haqda redaksiyaya sensasion məlumat daxil olub; Vüqar Cəfərovun yanına gələn sələfilərə xüsusi diqqət ayırdığı, müəssisədə dini təbliğat apardığı iddia olunur

**"Sumqayıt şəhərində yerləşən "ASAN xidmət" mərkəzinin rəhbəri Vüqar Cəfərov sələfidir və bu şəhərdəki həmfikirlərini açıq şəkildə dəstəkləyir". Bu sensasion məlumatı "Yeni Müsavat" Sumqayıtdakı mənbələrdən alıb. Məlumatda iddia olunur ki, rəis açıq şəkildə yerli sələfiləri dəstəkləyir, hər gün "ASAN"a bu və ya digər məsələlərlə bağlı xidmətə gələn Sumqayıt və ətraf qəsəbələrdə yaşayan sələfilər birbaşa rəisin yanına keçir, onların işləri rahat şəkildə həll olunur. Hətta işçilərdən bəziləri etiraf edib ki, bu adamlara xüsusi diqqətin olmasını rəis tapşırıb.**

Mənbə bildirir ki, "ASAN xidmət" rəhbəri müəssisədə dini təbliğat aparır, eyni zamanda vətəndaşlar arasında ayrı-seçkilik yaradaraq təriqətdaşlarına xüsusi şərait yaradır. Əlbəttə, hər bir vətəndaşın inancına müdaxilə etmək olmaz, ancaq dövlət qurumunda dini görüşlərinə görə ayrı-seçkilik narahatlıq doğurur və vətəndaşlar əslində bu faktdan şikayətçidirlər.

Qeyd edək ki, xidmətin saytında verilən məlumata görə, Cəfərov Vüqar Vaqif oğlu 12 aprel 1983-cü ildə Sumqayıt şəhərində anadan olub. O, Bakı Dövlət Universitetində politologiya ixtisası üzrə bakalavr, Qərb Universitetində isə magistr təhsili alıb. 2006-2010-cu illərdə Əmək və Əhalinin Sosial



Vüqar Cəfərov

Müdafiəsi Nazirliyi, Sumqayıt şəhər, Sosial müavinətlər sektorunda baş məsləhətçi vəzifəsində çalışıb.

Son vaxtlar istər rəsmi qurumlarda, istərsə də özəl təşkilatlarda çalışan, hətta rəhbər vəzifə tutan bir neçə şəxsin sələfi təriqətinə bağlı olduğuna dair məlumatlar dolaşır. Məsələn, bu ilin iyul ayında hüquq-mühafizə orqanları tərəfindən qapadılan "Sevil" yaşayış massivinin müdiri Aynur Zeynalovun, "AAAF İnşaat" MMC-nin baş direktoru Tofiq Heydərovun sələfi olduqlarına dair mətbuatda xəbərlər yayıldı. Vergilər Nazirliyinin mühafizə idarəsinin rəhbərinin də sələfi olduğu barədə aylar öncə mediada informasiya verilmişdi. Hətta "Sevil" MMC-nin rəhbərinin vəhhabi olduğu üçün qapadıldığına dair iddialar var.

Dini təriqət üzvlərinin Prezident Administrasiyasına, Milli Məclisə qədər gedib çıxdığı da heç kimə sirr deyil. Bu ilin mart ayında PA-nın şöbə müdiri Elnur Aslanovun, ondan təxminən 1 ay sonra isə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin rəhbəri Elşad İsgəndərovun məhz nurçu təriqətinin Azərbaycandakı qoluna rəhbərlik etdikləri üçün işdən çıxarıldıqları deyilir. Bu, rəsmi şəkildə elan və etiraf olunmasa da hər halda bu iki gənc kadrın vəzifədən atılmalarında dini təriqət amilinin olduğu hər kəsə məlumdur.

❑ **Hüseyn DƏMİRÇİ**

# QAT üzvləri BMT-nin Bakı ofisinin qarşısında toplaşdılar

## Aksiyanın qarşısı polislər tərəfindən alınıb; qətnamə nümayəndəliyə təqdim olunub

**Oktyabrın 31-də saat 12:00 radələrində Qarabağ Azadlıq Təşkilatının (QAT) üzvləri BMT-nin Bakı ofisinin qarşısında aksiya keçirməyə cəhd ediblər. Aksiyanın qarşısı polislər tərəfindən alınıb. Asayiş keşikçiləri QAT üzvlərinin ofisin qarşısına yaxınlaşmalarına imkan verməyiblər.**







Aksiyanın keçirilməsinə səbəb erməni girovluğunda saxlanılan Azərbaycan vətəndaşlarının- Dilqəm Əsgərov və Şahbaz Quliyevin Yerevan Məhkəməsində mühakimə olunmaları və buna BMT-nin Bakı nümayəndəliyinin susqun mövqe nümayiş etdirməsidir. Polislər üzərində Dilqəm Əsgərov və Şahbaz Quliyevin şəkilləri olan plakatların qaldırılmasına da imkan verməyiblər. Bu zaman polislərlə piket iştirakçıları arasında insident yaşanıb. Şüar səsləndirilməsinə də polislər mane olublar.

**QAT sədri Akif Nağı polislərlə söhbəti zamanı onlara aksiyanın məramı barədə geniş məlumat verərək, piketin ofisin qarşısında keçirilməsinə icazə almağa çalışıb.** Lakin polislər yenə icazə verməyiblər. Yalnız qətnamənin nümayəndəliyə təqdim olunmasına icazə veriblər. Akif Nağı və iki QAT fəali qətnaməni təqdim etmək üçün polislərin müşayəti ilə ofisə daxil olublar. QAT sədri və üzvlərini nümayəndəliyin rəhbəri qəbul etməyib. Qətnaməni Əməliyyat Şöbəsinin rəhbəri Sübhan Rəhimov qəbul edib. Ofisindən məktubun tərcümə edilərək, rəhbərliyə təqdim ediləcəyi bildirilib. Məktubun verilməsindən sonra aksiya iştirakçılarına plakatlar qaldırmağa icazə veriblər. Plakatların üzərində "BMT biganəliyə son qoysun", "Dilqəm Əsgərov və Şahbaz Quliyevə azadlıq!", "BMT! Ya bir iş gör, ya çıx get!", "Erməni işğalına və oyunbazlıqlara son!" kimi şüarlar yazılıb. Şüarlar ingilis və Azərbaycan dillərində olub.

### Akif Nağı: "Məqsədimiz beynəlxalq təşkilatların diqqətinin əsirlərimizə tərəf yönəlməsinə nail olmaqdır"

Aksiyadan sonra **QAT sədri Akif Nağı** musavat.com-a bunları deyib: "Aksiyanın qətnaməsini nümayəndəliyə təqdim etdik. Məqsədimiz beynəlxalq təşkilatların diqqətinin əsirlərimizə tərəf yönəlməsinə nail olmaqdır. Onlar çox ağır vəziyyətdədir. Təbii ki, bununla bağlı Azərbaycan hakimiyyəti də müəyyən addımlar atmalıdır. Mövqeyimiz ondan ibarətdir ki, radikal addımlar atılmalıdır. Ən azı lokal əməliyyatlar həyata keçirilməlidir. Çünki əsirlikdə olmaları azmış kimi, onları hər gün incidirlər. İşgəncə verirlər. Hərəkət etmə zamanımızdır. Böyük mənada istəyirik ki, müharibə başlasın. Əlimizdə kifayət qədər əsas var. Bu hakimiyyətə olan tələbimizdir. Əgər hakimiyyətin əli-qolu beynəlxalq təşkilatlar tərəfindən bağlanırsa, həmin təşkilatlar addımlar atmalıdır. Dünyanın ən nüfuzlu təşkilatların biri BMT-dır. Dünyada hər hansı bir insanın başına bir iş gələn kimi, bu təşkilatın rəhbərliyi səviyyəsində reaksiya verilir. Amma indi onların gözü qarşısında əsirlərimizi incidirlər, ağır işgəncələrə məruz qoyaraq, alçaldırlar. İndi də qurama məhkəmə keçirirlər. Öz torpağımızda vətəndaşlarımız mühakimə olunur. 2-3 nəfərlə silahlı qrup olar? Bunların silahı nə idi? Əsas tələbimiz odur ki, beynəlxalq təşkilatlar bu məsələdə mövqe nümayiş etdirsinlər. Bu tələblərimizi bu gün ofisə təqdim etdiyimiz qətnamədə göstərmişik. Bundan sonra ki əsas fəaliyyətlərimizdən biri beynəlxalq təşkilatları bu məsələyə qarışmağa məcbur etmək, eyni zamanda Azərbaycan hakimiyyətindən müharibə tələbi etmək olacaq".

**QAT sədri BMT-nın Bakı nümayəndəliyinin rəhbərinin onları qəbul etməməsinə də aydınlıq gətirib:** "Biz nümayəndəliyin rəhbəri ilə görüşməyə cəhd etdik. Təəssüf ki, alınmadı. Bunun özü də ən böyük hörmətsizlikdir. Özünü Əməliyyat Şöbəsinin rəhbəri kimi təqdim edən azərbaycanlı Sübhan Əhmədov bizi qəbul etdi. Onunla görüşüb, fikirlərimizi çatdırdıq. O bildirdi ki, məktub tərcümə olunub rəhbərə təqdim olunacaq. Bir ehtiyac yaranarsa, bizimlə əlaqə saxlanılacağını da qeyd etdi".

❑ **Cavanşir ABBASLI**
**Fotolar müəllifindir**

YENİ MÜSAVAT
N 269 (5978) 1 noyabr 2014


Tariel Oniani

# “Şakro” “Ded Xasan”ın məzarı üstə and içdi

## Rusiya saytları yazır ki, “qara sıyahı”da “Taro” ilə yanaşı “Rövşən Lənkəranski”nin də adı var

**Xəbər verdiyimiz kimi, Rusiya kriminal aləminin ən nüfuzlu nümayəndələrindən biri olan “Şakro Molodoy” ləqəbli 61 yaşlı Zaxari Kalaşov oktyabrın 29-da İspaniya həbsxanasından azadlığa buraxılıb. Rusiya kriminal aləminin “xaç atası” sayılan Aslan Usoyanın (“Ded Xasan”) 2013-cü ilin yanvar ayının 16-da öldürülməsindən sonra xüsusilə onun yaxın qohumları olan yezidi kürdlər klanın əvvəlki nüfuzunu qorumağa çalışsalar da, buna nail ola bilmədilər. Üstəlik, klan liderinin qətlindən ötən müddətdə onun qanı da yerdə qaldı.**

Ehtimallara görə, milliyyətcə yezidi kürd olan “Şakro Molodoy”un həbsdən azad edilməsi ilə kriminal aləmdə yeni qanlı hesablaşmalar başlayacaq və onun ilk işi “Ded Xasan”ın qatillərini cəzalandırmaq olacaq. Bu ehtimallar artıq doğrulmağa başlayıb.

Məlum olub ki, “Şakro” Moskvaya qayıdan kimi, “Ded Xasan”ın və Vyaçeslav İvankovun (“Yaponçiki”) məzarlarını ziyarət edib. Onu “Ded Xasan” klanının liderlərindən olan Piçuqa, Voskres, Radjika və Maçi müşayiət edib. “Şakro” məzarlıqda and içib ki, onların qatillərini bağışlamayacaq.

Rusiya saytları yazır ki, “Ded Xasan”ın qətlinin günahkarı kimi konkret ad çəkilməsə də, klan hazırda həbsdə olan “Taro” ləqəbli Tariel Onianidən və “Merab Suximski” kimi tanınan Merab Canqveladzedən şübhələnir. Primecrime.ru saytı yazır ki, “Ded Xasan” klanının “qara siyahı” sında “oğru dünyası”nın əsas simalarından olan Rövşən Canıyevin (“Rövşən Lənkəranski”) adı da var. Sayt onu da qeyd edir ki, “Rövşən Lənkəranski” “qara sıyahı” da olanlar sırasında azadlıqda olan yeganə şəxsdir.

“Taro”nun slavyan qruplaşması ilə ilk qarşıdurması İrkutsk türməsində baş verən bir olayla başlayıb. Onianinin dəstəklədiyi “Maxo” ləqəbli avtoritet İlya Simoniya ilə “Yaponçik” arasında problem yaranır. “Sxodka” ların birində “Yaponçik” “Ded Xasan”ın dəstəyi ilə “Maxo”nu oğru adından məhrum edir. Oniani bunu özünə yönəlmiş addım hesab edir və klanlar arasında qarşıdurma başlayır.

2005-ci ildə İspaniya polisinin Avropada kriminal qruplaşmalara qarşı keçirdiyi irimiqyaslı əməliyyat zamanı bir neçə gürcü “vor zakon” həbs edilsə də, “Taro” polisdən gizlənə bilir. Amma bu əməliyyatda “Şakro Molodoy” həbs edilir. Bundan sonra “Taro”nun lideri olduğu qruplaşmaya qarşı həm Avropada, həm də Rusiyada əsl müharibə başlayır. Bu məsələni yoluna qoymaq üçün “sxodka” çağırılır. Gəmidə çağırılmış “sxodka”ya “Yaponçik” və “Ded” gəlmir və bunun ardınca milis orada xüsusi əməliyyat keçirir. Bundan sonra “Taro”nun “Yaponçik”lə bərabər “Ded Xasan” la münasibətləri düşmənçilik həddinədək kəskinləşir.

2009-cu ildə Oniani Rusiyada(o vaxta kimi artıq Rusiya vətəndaşı olan) hüquq-mühafizə orqanlarının əlinə keçir. “Matrosskaya tişina”da saxlanılan Oniani barədə 36 “qanuni oğru”nun (“Yaponçik”,”Ded Xasan”, “Şakro Molodoy” və sair) imzası ilə məktub hazırlanır və “onu vurun” fitvası verilir. Bu məktubdan sonra “Yaponçik” güllələnir. “Yaponçik”dən sonra isə “Ded Xasan” öldürülür.

Oniani məhkəmənin qərarı ilə 10 il azadlıqdan məhrum edilib və hələ bir neçə il həbsdə yatmalıdır.

“Taro” nun Rövşən Lənkəranski”ilə münasibətlərinin necə yarandığı barədə məlumatlar demək olar ki, yox səviyyəsindədir. Yalnız o məlumdur ki, bu “qanuni oğrular”ın bir-birinə münasibəti normaldır. Əgər “Ded”ə sui-qəsdə də onların adı da birgə hallanırsa, deməli, bu, təsadüfi deyil.


Rövşən Canıyev


Merab Canqveladze


Zaxari Kalaşov

Merab Canqveladzeyə gəlincə, o da “Rövşən Lənkəranski” yə yaxın adam kimi tanınıb. Onun qardaşı Levan Suxumi klanının “beyni” hesab olunur. Amma son məlumatlara görə, indi Canqveladzelər “Lənkəranski” ilə yaxınlıq etmirlər. Merab bir müddət əvvəl Avropada həbs edilib. Rusiya saytları yazır ki, Levan azadlığa çıxan “Şakro Molodoy”la görüşmək istəsə də rədd cavabı alıb."Rövşən Lənkəranski" nin konkret harada yaşadığı isə bilinmir.

“Ded Xasan”ın qətlindən sonra “Lənkəranski” nin kriminal aləmdə şəriksiz lider olacağı deyilirdi. Onun slavyan qruplaşmaları və gürcü “oğru” larla münasibətlərinin yaxşı olması buna imkan verirdi. Amma xüsusilə yezidi kürdlər və onunla münasibətləri pis olan azərbaycanlı kriminallar “Lənkəranski”yə ciddi maneə oldular.

Rusiya KİV-ləri yazır ki, “Şakro Molodoy”un azadlığa çıxması ilə Rusiya kriminalında ciddi mövqe dəyişikliyi olacağı barədə xəbərlər şişirdilib. Çünki “Şakro Molodoy” Rusiyaya şərtlə qayıdıb və hüquq-mühafizə orqanları ilə anlaşıb. “O Moskvanın sakit həyatını pozmamağa söz verib” deyə, xəbərdə bildirilir. “Şakro Molodoy” un Rusiya hüquq-mühafizə orqanları ilə anlaşa biləcəyi xəbərləri səbəbsiz deyil. 2000-ci il, iyunun 18-də Tiflisdəki erməni kökənli ABŞ vətəndaşı Aleksandr Kraynan oğurlanır. Bir neçə gün sonra “Şakro” biznesmenin xanımına zəng edərək ərinin oğurlandığını deyib. O, Kipr banklarının birindəki bank hesabını verərək ora 1,2 milyon dollar köçürülməsini istəyib. Pul deyilən hesaba köçürülsə də biznesmenin hələ də öldü-qaldısı bilinmir.

2010-cu ildə bu cinayət işi ilə bağlı Gürcüstan hökuməti İspaniya Ədliyyə Nazirliyinə “Şakro” nun ekstradisiyası üçün sorğu verib. Ona bu cinayət işi ilə bağlı 18 il qiyabi hökm də çıxarılıb. Rusiya isə göründüyü kimi, onu Gürcüstana təhvil verməyib...

❑ **Xəbər xidməti**

# Deputat-oliqarxın 1 milyon manatını oğurlayan məhkəmə qarşısında

## Əsabil Qasımovun oğlu məhkəmədə dindirilə bilər


Əsabil Qasımov

**Bakı Ağır Cinayətlər Məhkəməsində deputat - oliqarx Əsabil Qasımovun ailə holdinqi “Karat”a daxil olan “Karat MMC”dən 1 milyon manat oğurlanması araşdırılır.**

**Hakim Tamella Nəsrullayevanın sədrliyi ilə keçirilən prosesdə məhkəmə qarşısına Abşeron rayonu, Qobu qəsəbə sakini, 28 yaşlı Ramil İmaməliyev çıxarılıb. İttihama görə, əvvəllər “Karat MMC”də çalışan R.İmaməliyev işdən çıxdıqdan sonra ofisdən oğurluq etmək fikrinə düşüb. O, şirkətin ofisindəki seyfdə külli miqdarda pul olduğunu qabaqcadan bilib.**

**2014-cü il aprelin 11-də gecə saatlarında ofisin binasına gələn R.İmaməliyev dam örtüyünü sökərək içəri daxil olub.** R.İmaməliyev ofisdəki seyfin qapısını sındıraraq 1 milyon manat pulu idman çantasına doldurub və oranı tərk edib. Oğurluq pulları Qobu qəsəbəsində yaşadığı evə gətirən Ramil İmaməliyev bu barədə qardaşı Ramiz İmaməliyev və anası Ceyran İmaməliyevaya məlumat verib. Onlar pulun əsas hissəsini evin müxtəlif yerlərində gizlədiblər.

Ramil İmaməliyev isə pulun bir hissəsini özü ilə götürərək “İnfiniti” markalı, Az 90 HZ 200 dövlət nömrə nişanlı avtomobil alıb. Saxlanılarkən maşının yük yerindən 5 min manat, Qobu qəsəbəsindəki evdən isə 31 min 338 manat pul aşkarlanaraq götürülüb.

Ramil İmaməliyev istintaqa ifadəsində bildirib ki, oğurladığı pulların demək olar ki, yarısını bir qrup şəxs hədə-qorxu gələrək onun əlindən alıb. Əməliyyat axtarış tədbirləri nəticəsində bu cinayətdə şübhəli bilinən 4 nəfər - Kürdəmir rayon sakini, 35 yaşlı Aqil Şəmiyev, Qobustan rayon sakini, 31 yaşlı Zamiq Xasıyev, Beyləqan rayon sakinləri, 30 yaşlı Röyal Qədirovla 32 yaşlı Ruslan Əliyev də saxlanıb. Aqil Şəmiyev istintaqçılara deyib ki,

**Ramil İmaməliyevin son zamanlar bahalı avtomobil sürməsi və varlanması onu şübhələndirib.** Onlar Ramili izləyərək Bakı şəhərində yerləşən restoranlardan birinin qarşısında başına torba keçirib zorla avtomobilə oturdublar. Ramil İmaməliyevin ifadəsinə görə onlar özlərini hüquq-mühafizə orqanlarının əməkdaşları kimi təqdim edərək 450 min manat pul tələb ediblər.

Ramil İmaməliyev onu girov saxlayan şəxslərin əlindən yaxa qurtarmaq üçün anası Ceyran İmaməliyevaya zəng edərək evdəki puldan 400 min manatı göndərməyi tapşırıb. Ceyran İmaməliyeva isə pulu sayaraq kiçik oğlu Ramizə verib və qardaşının dediyi yerə göndərib. Ramil İmaməliyevdən 450 min manat alındıqdan sonra o buraxılıb. Əldə olunan pul saxlanılan şəxslər arasına bölüşdürülüb. Əməliyyat istintaq tədbirləri zamanı pulun 20 min manatını Zamiq Xasıyevlə Aqil Şəmiyevdən, 98 min manatını isə Ruslan Əliyevdən aşkar edilərək maddi sübut kimi götürülüb. Eləcə də İmaməliyevlərin evində axtarış aparılarkən hissələrə ayrılaraq müxtəlif yerlərdə gizlədilmiş 6600 manat və 800 ABŞ dolları tapılıb.

R.İmaməliyev tutulmazdan bir neçə gün əvvəl qardaşına və anasına zəng edərək oğurluq pulların 200 min manatını qəbiristanlıqda gizlətməyi tapşırıb. Ramil İmaməliyev həmin pulu sellofan torbaya bükərək nənəsinin Qobu qəsəbə qəbiristanlığındakı qəbrinin üstündə qazaraq basdırıb. Polis əməkdaşları deyilən əraziyə baxış keçirərkən 190 min 800 manat pulu aşkar edərək istintaqa təhvil verib.

**Dünən keçirilən prosesdə Ramil İmaməliyev təqsirləndirilən şəxs qismində ifadə verib.** O, törətdiyi oğurluq əməlini etiraf edib. Bundan sonra Aqil Şəmiyev, Zamiq Xasıyev, Röyal Qədirov və Ruslan Əliyev Ramil İmaməliyevin cinayət işi üzrə isə şahid qismində dindiriliblər. Onların barəsində cinayət işi ayrıca icraatda aparılıb. **İş üzrə zərərçəkən qismində Əsabil Qasımovun oğlu, “Karat” holdinqin rəhbəri Taleh Qasımovun dindiriləcəyi də istisna deyil.** Proses davam edir. Xatırladaq ki, Ə.Qasımov 2010-cu ilə qədər “Karat” holdinqin prezidenti olub. Həmin il holdinqin idarəçiliyini oğlu Taleh Qasımova tapşıraraq İmişli rayonundan deputat seçilib. 1 milyonluq oğurluq üzə çıxandan sonra məlum olub ki, deputat vaxtilə şirkətində qarovulçu olan Rövşən Hacıyevi də həbs etdirib. Rövşən Hacıyevin bacısı Güllü Hacıyeva mətbuat konfransı keçirərək deputatın saysız-hesabsız şirkətlərə məxsus olduğunu bildirib. Deyib ki, deputat onun qardaşını həddən ziyadə olan pul-parasını yaxın qohumlarından qorumaq üçün həbs etdirib.

❑ **E.HÜSEYNOV**

# Orduya mülki nəzarət edəcək yeni birlik yaradıldı

## Məhəmməd Əsədullazadə: “Məqsədimiz xalqla silahlı qüvvələr arasında əlaqə yaratmaqdır”

**Cənubi Qafqaz Təhlükəsizliyi və Əməkdaşlıq İnstitutu İctimai Birliyi adlı yeni təşkilat yaranıb. Təşkilatın məqsədi isə orduya mülki nəzarəti həyata keçirməkdir. Bu haqda təşkilatın rəhbəri Məhəmməd Əsədullazadə özü məlumat verib. M. Əsədullazadənin sözlərinə görə, ictimai birlik ehtiyatda olan hərbiçilərlə birgə oktyabrın 11-də təsis edilib:**

“Birliyimizin İdarə Heyəti artıq formalaşıb. Biz qeydiyyat üçün Ədliyyə Nazirliyinə müraciət etmişik. Qeydiyyatdan keçdikdən sonra əməli fəaliyyətə başlayacağıq. Məqsədimiz Azərbaycan xalqı ilə silahlı qüvvələr arasında əlaqə yaratmaq və orduya sivil nəzarət etməkdir. Ordu sahəsində yaranan problemləri yerində həll etmək də bizim məqsədlərimiz sırasında yer alır. Azərbaycanda hərbi vətənpərvərlik ruhu aşağı səviyyədədir. Biz Azərbaycan məktəblərində hərbi dərslərin gedişini intensiv şəklə saldırmağa çalışacağıq. Biz Azərbaycan ordusunun NATO standartlarına uyğun formalaşması istiqamətində qəbul olunacaq qanunlara da dəstək verəcəyik. Həmin qanunların da qəbul olunması üçün birgə komissiyalar yaradıb hökumətlə əməkdaşlıq edəcəyik. Torpaqlarımız işğal altında olduğu üçün Azərbaycanın müharibə etməsi labüddür. Əgər müharibə başlayarsa, biz ictimai birlik olaraq silahlı qüvvələrin yanında olacaq vətəndaşları hərbi vətənpərvərlik ruhunda, hərbi əhval ruhiyyəsinə hazırlamaq üçün geniş təbliğat-təşviqat işləri aparacağıq. İkinci dünya müharibəsində SSRİ-nin qələbə çalmasında psixoloji durumun yüksək səviyyədə olması böyük rol oynayıb. Bizim birliyin çox böyük kadr potensialı var. Bu kadr potensialı hüquqşünaslar və ehtiyatda olan zabitlərdən ibarətdir. Bu zabitlərin arasında Abbas İsmayılov, Elnur Ağarzayev və başqaları var. Biz həmçinin Sülh və Əməkdaşlıq İnstitutuyuq. Buna görə də çalışacağıq ki, regionda sülh və təhlükəsizlik bərqərar olsun. Biz Ermənistanı çıxmaq şərti ilə Gürcüstan və digər region ölkələri ilə sıx əməkdaşlıq edəcəyik. Amma o məsələ də var ki, QHT-lərə ayrılan qrantlar doğrudan da düzgün istiqamətə yönəlmir. Buna görə də mən Azərbaycan hakimiyyətinin haqlı sayıram. Ancaq bizim fəaliyyətimiz hüququ müstəvidə olacaq. Biz bilirik ki, Prezident yanında QHT-lərə Dövlət Dəstəyi Şurası var. Biz onlarla əməkdaşlıq edəcəyik və oradan maliyyələşəcəyik”.

❑ **Günel MANAFLI**

## 1 milyon manata yaxın vergidən yayınan şəxs tutuldu



**Azərbaycanda vergidən yayınan şəxs həbs olunub. Vergilər Nazirliyinin Analitik-informasiya şöbəsindən “APA-Economics”ə verilən məlumata görə, qurum yanında Vergi Cinayətlərinin İbtidai Araşdırılması Departamentinə daxil olmuş məlumat əsasında aparılmış əməliyyat tədbirləri nəticəsində müəyyən edilib ki, Bərdə rayonunun Zümürxaç kənd sakini, 11 saylı Ərazi Vergilər Departamentində qeydiyyatda olan Bayramov Fərrux Teymur oğlu (VÖEN: 4000286482) vergilərin hesablanması və dövlət büdcəsinə ödənilməsinə məsuliyyət daşıyan cavabdeh şəxs kimi sahibkarlıq fəaliyyəti göstərdiyi dövrdə Azərbaycan Respublikası Vergi Məcəlləsinin 16.1.1, 16.1.3, 16.1.7, 53.1, 77.3, 78.1, 130.1, 152.1-ci maddələrinin tələblərini pozaraq, respublikanın müxtəlif rayonlarından 1,6 mln. manat məbləğində kənd təsərrüfatı məhsullarının alınaraq Rusiya Federasiyasına ixrac edilməsindən əldə etdiyi gəlirdən ümumilikdə, külli miqdar təşkil edən 185 min 901 manat məbləğində fiziki şəxslərin gəlir vergisini dövlət büdcəsinə ödəməkdən yayınıb.**

Bundan başqa, F.Bayramov 11 saylı Ərazi Vergilər Departamentində vergi ödəyicisi kimi qeydiyyatda olan fərdi sahibkarlar Xəlilov Asif Vahid oğlunun, Nuruyev Arzu Neymət oğlunun, Orucov Cəmaləddin İbrahim oğlunun və Orucov Orxan Cəmaləddin oğlunun vergi ödəyicisinin eyniləşdirmə nömrəsindən istifadə etməklə sahibkarlıq fəaliyyətini həyata keçirib, onların adından Azərbaycan ərazisində müxtəlif vaxtlarda kənd təsərrüfatı məhsullarının alınmasını və həmin məhsulların Rusiya Federasiyasına ixrac olunmasını təşkil edib. Bu zaman o, müvafiq vergilərin ödənilməsinin təmin edilməsinə cavabdeh şəxs olduğu halda, ümumilikdə külli miqdar təşkil edən 733 min 769 manat məbləğində fiziki şəxslərin gəlir vergisini dövlət büdcəsinə ödəməkdən yayınıb.

Qeyd olunan hərəkətlərlə F.Bayramovun Cinayət Məcəlləsinin 213.2.2-ci maddəsi ilə nəzərdə tutulmuş cinayət əməlini törətdiyi müəyyənləşdirilərək o, 22 oktyabr 2014-cü il tarixdə şübhəli şəxs qismində tutularaq Bakı şəhəri Yasamal rayon polis idarəsinin müvəqqəti saxlama yerinə təhvil verilib.

Təqsirləndirilən F.Bayramovun törətdiyi cinayətin xarakterini, azadlıqda qalarsa cinayət prosesini araşdıran orqandan gizlənə, istintaqın gedişinə mane ola biləcəyini və təkrar cinayət törədə biləcəyini nəzərə alaraq, Bakı şəhəri Yasamal rayon məhkəməsinin qərarı ilə 24 oktyabr 2014-cü il tarixdə barəsində həbs qətimkan tədbiri seçilib.



**Bu gün Elçin bəyin doğum günüdür!**

**Hörmətli Elçin bəy, ad günün mübarək! Sən ilk öncə rəbbinə, sonra da valideynlərinə öz minnətdarlığını bildir. Çünki səni yaradan Allah, bu dünyaya gətirən isə valideynlərindi. Arzu edirik gələn hər ilin ötən hər ildən qat-qat uğurlu, kədər ilə həmişə səndən uzaq olsun.**

**Bu təbrikə məhləuşaqları da qoşulur.**




## Keçmiş polis əməkdaşı həbs olundu

**Azərbaycanda deputatlığa keçmiş namizəd həbs edilib. Hüquq-mühafizə orqanlarından APA-ya verilən məlumata görə, Osmanov Mehralı Məhəmməd oğlu Cinayət Məcəlləsinin 237.2.1-ci (qanunsuz olaraq tərkibində narkotik maddələr olan bitkiləri kultivasiya etmə - bir qrup şəxs və ya mütəşəkkil dəstə tərəfindən törədildikdə) maddəsi ilə təqsirli bilinir.**

M.Osmanov Daxili İşlər Nazirliyinin əməkdaşlarının həyata keçirdiyi əməliyyat-axtarış tədbirləri nəticəsində saxlanılıb. Onun barəsində məhkəmənin qərarı ilə həbs-qətimkan tədbiri seçilib.

Qeyd edək ki, M.Osmanov uzun illər polis orqanlarında çalışıb. Bir müddət əvvəl isə xidmətdə yol verdiyi nöqsanlara görə işdən qovulub.

M.Osmanov 2010-cu ildə keçirilən parlament seçkilərində 109 saylı Balakən seçki sairəsindən deputatlığa namizəd olub.

## Polis əməkdaşı avtoxuliqanlıq etdiyinə görə işdən qovuldu

**Azərbaycanda polis əməkdaşı avtoxuliqanlıq etdiyinə görə işdən qovulub. Bu barədə report.az saytına hüquq-mühafizə orqanlarından bildirilib. Məlumata görə, Çevik Polis Alayının əməkdaşı, polis çavuşu Fərhadov Peyman Fərhad oğlu metronun “Qara Qarayev” stansiyasının yaxınlığında “VAZ 2107" markalı, dövlət nömrə nişanı olmayan avtomobili yolun əks istiqamətinə çıxmaqla sürüb. O, Dövlət Yol Polisi (DYP) əməkdaşlarının ”saxla" əmrinə də tabe olmayıb.**

P.Fərhadovun idarə etdiyi avtomobilin təkəri çıxdıqdan sonra onun polis əməkdaşı olduğu məlum olub. P.Fərhadov vəzifəsindən kənarlaşdırılıb. Onun barəsində İnzibati Xətalar Məcəlləsinin 296-1.1-ci (Avtoxuliqanlıq, yəni nəqliyyat vasitəsinin sürücüsü tərəfindən ictimai qaydanı və əhalinin dincliyini nümayişkaranə şəkildə pozan, cəmiyyətə açıqca hörmətsizlik ifadə edən, yol hərəkəti qaydalarının müxtəlif üsullarla davamlı olaraq pozulması ilə müşayiət olunan qərəzli hərəkətlərə görə) maddəsi ilə iş qaldırılıb.

## Kişilər!!!

Xəstəliklərdən əzab çəkən adamlar üçün! Diqqət!
**İsrail təbabəti** tətbiq edilir! **Axırıncı şans!!!**
Əgər Sizə nə **Azərbaycanda,** nə də **xaricdə heç kim kömək edə bilməsə və** Siz aşağıda **göstərilən xəstəliklərdən** həmişəlik qurtarmaq istəyirsinizsə, onda **yaxşı insanlara,** keyfiyyətli, qısa müddətdə və tam müalicəsini **d-r Vaiz Səmədov apara bilər:**

---

* **Cinsi zəiflik, meyilin və ereksiyanın azalması tam impontensiyədək** (yaşdan və səbəbdən asılı olmayaraq)
* **Cinsi marağın** və **cinsi aktların** azalması
* **Vaxtından tez** toxum **ifrazatı** (səbəbdən asılı olmayaraq)
* **Toy gecəsinin** uğursuzluqları **(kişi tibbi problemlər)**
* **Prostatitlər.** Prostat vəzin **böyüməsi** və ya **kiçilməsi**
* **Prostat adenoması** *(vəzidə düyünlərin əmələ gəlməsi)*
* **Cinsi vəzilərin**-xayaların **böyünməsi** və ya **kiçilməsi**
* **Qasıq-xayalıqda** sızıltı, küt və ya kəskin **ağrılar**
* Əvvəldən **xarici cinsi üzvün** balaca olması
* **Xarici cinsi üzvün** sonradan **birdən kiçilməsi**
* **Cinsi üzvün** düyünlə birdən **əyilməsi** (Peyroni xəstəl.)
* **Oğlan uşaqlarında cinsiyyət üzvlərinin inkişafsızlığı**
* **Uşaqlarda** gecə vaxtı **yerinə sidiyə getməsi (*enurez*)**
* Hormonal və iltihablı **sonsuzluq** (kişilər və qadınlarda da)
* **Qadınlarda uşaqlıq boruların keçməməzliyi**
* Sidik aktlarının gecə ya **gündüz tez-tez olması**
* Sidik aktlarının çətinlikləri və tutulmaları
* Cinsi aktla bağlı **sidikdə** və **spermada qan olması**
* **Zöhrəvi xəstəliklərdən** sonra **qalıqlar və ağırlaşmalar**
* **Saçların** bütün formalatda **tökülməsi** və **sızanaqlar**
* **Gərginlik, yuxusuzluq, yaddaşın azalması**

---

Həkim qəbulu və həkimə zəng etmək saat 11.00-dan sonra
**Tel: (012) 437-88-05; (050) 213 88-05.**
**Həkimin 16 TV çıxışları: youtube.com və facebook.com “doktor Vaiz Səmədov”.**

### Elan

**Azadlıq prospekti, ABŞ səfirliyi və Nəsimi Rayon Polis İdarəsinin yanında, 12 mərtəbəli binanın 4-cü mərtəbəsində, 90kv.m.-lik 3 otaqlı mənzil satılır. Sahibindən.**
**Telefon: (050) 3885035**

## Beynəlxalq Təhsil Mərkəzi

***Biz sizi Ukraynanın, Belorusun, Rusiyanın və Gürcüstanın dövlət universitetlərində bakalavr və magistr dərəcələri üzrə əyani, qiyabi və ikinci ali təhsil almağa dəvət edirik.***

*< Kiyev Dövlət Texniki Universiteti*
*< Kompüter mühəndisliyi. Hüquq. İqtisadiyyat.*
*< Kremençuk Dövlət Universiteti*
*< Psixologiya. Jurnalistika. Hüquq. Filologiya*
*< Kiyev Dövlət Dəniz Akademiyası*
*< Gəmi sürmə. Dəniz və çay nəqliyyatı. Hüquq*
*< Tbilisi Dövlət Tibb Universiteti*
*< Müalicə işi. Stomatologiya. Əczaçılıq. Pediatria*
*< Minsk Dövlət Universiteti*
*< Beynəlxalq Münasibətlər. İqtisadiyyat. Jurnalistika*
*< Qrodno Dövlət Universiteti*
*< Hüquq. İqtisadiyyat. Pedoqoqika. Tərcüməçilik*
*< Volqoqrad Dövlət Aqrar Universiteti.*
*< Aqronom. Yerölçmə və Kadastr. Elektrik təchizatı.*

**Bizim bu ölkələrin yuxarıda adları sadalanan və bu siyahıda adları olmayan bir çox digər dövlət universitetləri ilə əməkdaşlıq və təmsilçilik haqqında rəsmi müqavilələrimiz var. Diqqət! Bəzi ixtisaslar üzrə pulsuz təhsil almaq şansınız var!**

**Ünvan: Bakı ş. Məmmədzadə k. 13A «Nərimanov» m-su**
**Tel: (050) 3319999; (077)3319999; (055)2522525; (012)4379980**

## Babasil xəstəliyinin ən müasir metodla MÜALİCƏSİ

*Almaniyanın məşhur “Karl Etorts” firmasının aparatı ilə Moskva şəhəri proktologiya ETM-də xüsusi hazırlıq keçmiş həkim tərəfindən qansız, ağrısız, yataq rejimi gıozləmədən - lateks həlqə qoyulması.*

SƏLİMOV FƏRMAN
Tel: (055) 776-70-34


Fuad Musayev

# AFFA-nın sabiq prezidentindən şok açıqlamalar

## Fuad Musayev: "Nə içki içirdilər, nə siqaret çəkirdilər, nə də arvadbazlığa gedirdilər"

**"İndi də deyirlər Fuad Musayev gedəndən sonra hər şey batdı". Bunu Bakı şəhərinin keçmiş I katibi, Azərbaycan Futbol Federasiyaları Assosiasiyalarının (AFFA) ilk prezidenti Fuad Musayev Lent.az-a müsahibəsində deyib.**

Vaxtilə Azərbaycan futbolunun yeganə problemi kimi təqdim olunan Fuad Musayev artıq 11 ildir ki, AFFA prezidenti deyil. ArtıqFoqts da çıxıb gedib. Bəs, hazırki situasiy nə deməyə əsas verir? Jurnalistin mövzu ilə bağlı suallarını cavablandıran keçmiş AFFA prezidenti kifayət qədər açıq danışıb: "Qoy, AFFA son 11 ildə yetişdirdiyi futbolçulardan heç olmasa birinin adını çəksin? "Qarabağ"ın heyətində bizim uşaqlardı. Biz, keçmiş AFFA rəhbərliyi 1995-ci ildən 2003-cü ilə qədər üç dəfə yığmanın heyətini dəyişdik. 2003-cü ildən bu tərəfə yığmanın heyəti neçə dəfə dəyişib? Almaniyadan, nə bilim ordan-burdan futbolçu gətirib, familiyasını dəyişib yığmada oynatmaqla nə dəyişdi? Əfran kimi futbolçunu yığmaya çağırmırlar. Niyə?"

**F.Musayev səhhəti pisləşən Aftandil Hacıyevə yardım etdiyini də xatırladıb:** "Hər ay yüz dolar pul yollayırdım ona. 18 nəfər futbolçu ilə təlim-məşq toplanışına gedəndə İcraiyyə Komitəsində şəxsən özüm deyirdim ki, 19-cu futbolçu Aftandil olacaq. Aftandilin perspektivini görürdüm. Səbuhi və Rəşad Sadiqov qardaşlarını da "Şəfa"da saxlamışdım. Atası deyirdi ki, buraxın getsinlər "Neftçi"yə. Deyirdim ki, olmaz. "Şəfa"da maaş verilmirdi axı. Ataları da buna görə "Neftçi"də oynamaqlarını istəyirdi. Amma "Şəfa"da onları yaxşı geyindirirdim, yedizdirirdim. Elvin Məmmədovu Tovuzdan "Şəfa"ya gətirmişdik. Əfran kimi, Elvin kimi futbolçular batıb gedir. Niyə batırlar? Bütün bunların heç kimin vecinə deyil. Mən hər futbolçu ilə söhbət edirdim. Zaur Tağızadəni, Elçin Rəhmanovu, bir də Ruslan Musayevi Türkiyəyə, "Dardanelspor"a aparmışdım. Ata kimi baxırdım onlara. Bir aydan sonra ağladılar ki, istəmirik".

**F.Musayev deyib ki, futbolumuzda yaranmış xaosdan çıxış yollarını yazıb:** "Bütün konsepsiyanı dəyişmək lazımdır. 18-21 yaşında uşaqlardan ibarət iki komanda yaratmaq lazımdır. Onların da başında Vaqif Sadıqov, Şahin Diniyev, Nazim Süleymanov kimi mütəxəssislər dayanmalıdır. Baxın da almanlara. 1998-ci ildə, dünya çempionatında fiaskoya uğradılar. Bundan sonra məşqçiləri, uşaqları seçdilər. İndi də bəhrəsini görürlər. Biz "Şəfa"nı yaratmışdıq. Mən tez-tez Estoniyaya gedib gəlirdim. Estonlar bizdən nümunə götürdülər. İndi onları bir balaca böyüyən uşaqları İsveçə, Norveçə, İslandiyaya göndərirlər. Baxıram Estoniya yığmasının oyununa, əla oynayırlar. "Gəncə" pis vəziyyətdədi, yenə xaricdən futbolçu gətirir. Mən təklif edirəm ki, gələn ildən 3 komandanı - "Gəncə", "Turan" və "Şəmkir"i premyer liqaya qaytarsınlar. Onlardan pul almasınlar. Onların qarşısında bir şərt qoyardım ki, bu komandaların heyətində ancaq yerli uşaqlar oynayacaq. Ömür boyu Gəncə, Tovuz Azərbaycana, "Neftçi"yə futbolçu verib. İndi nə oldu?" "Şəmkir" bir Badri, bir də Kulikovla qan eləyirdi. Qalanları hamısı öz uşaqları idi. Oradakı stadionlar batır. Daha sonra, iki-üç mövsüm premyer liqadan heç bir komandanın aşağı diviziona düşməsinə icazə verməzdim. O vaxt SSRİ çempionatında da belə idi. Üç il heç bir klubu çempionatdan aşağı göndərmirdilər. Şərait yaratsınlar, klublarda 18 yaşlı futbolçular oynasın. Eybi yox, qoy oynasınlar. Dörd ilə, beş ilə qırx nəfər futbolçu ordusu olacaq əllərinin altında. Şəxsən mən buna inanıram. Sadaladıqlarımı etmək lazımdır. Zaur Tağızadəni, Fərrux İsmayılovu məhv elədilər. Rəşad Sadıqova "vəhhabi" adı qoşdular".

### "Zauru, Fərruxu məhv elədilər, Rəşada "vəhhabi" adı qoşdular"

**F.Musayev bildirib ki, futbolçular onun vaxtında ibadətə başlayıb:** "Rəşad Sadıqov, Tərlan Əhmədov, Emin İmaməliyev. Mən buna ancaq sevinirdim. Nə içki içirdilər, nə siqaret çəkirdilər, nə də arvadbazlığa gedirdilər. Bircə oruc tutmağı qadağan etmişdim. Xaricdə hara gedirdiksə, namaz qılmaq, məscidə getmək üçün onlara şərait yaradırdım. Nizam-intizam yüksək səviyyədə idi. Başa düşmürəm, namaz qılmağın nəyi pisdir ki? Ancaq saqqala qadağa qoyardım. Maradona olsan, hə, onda buyurub saxlaya bilərsən. Mən hətta musiqiyə belə fikir verirdim. Sovet vaxtı bir dəfə səhər tezdən "Neftçi"nin bazasına getmişdim. Gördüm muğamata qulaq asırlar. A bala, səhər-səhər nə muğamat?! Futbolçu yuxudan duranda canlı, oynaq musiqi dinləməlidir".

**Sabiq prezident deyib ki, Foqtsun yığmadan getməyində jurnalistlərin rolu çox böyük oldu:** "Mən dəqiq bilirəm ki, AFFA-dakılar Foqtsa aşağı hesabla uduzmağı tapşırmışdılar. Xorvatlara 6:0 məğlubiyyət bunların planlarını pozdu. Hücumçuları topla təmin edəcək normal bir yarımmüdafiəçi yox idi. Hətta Rauf Əliyev də arxaya qaçırdı. Foqts səkkiz nəfər müdafiəçi meydana buraxırdı. Göstərərdilər də Portuqaliya ilə Bakıda 1:1 oynadığımız oyunu Foqtsa. Niyə İtaliyaya Bakıda 0:2 uduzduğumuz oyunu göstərmədilər Foqtsa? İsveçə onların meydanında 3:0 uduzduq, amma ikinci hissədə 4 dəfə "ştanqa"ya vurduq. O vaxt İsveçin heyətində Larsson, Kennet Anderson oynayırdı. İndi İtaliya da, İsveç də çox düşüb. Biz belə oynayırdıq.

**F.Musayev deyib ki, Qurban Qurbanov gələcəkdə milliyə baş məşqçi ola bilər:** "Bu vəziyyətdə Qurban yığmanın baş məşqçisi olsa, batacaq. Niyə bu uşağı məhv etmək istəyirsiniz? Uşaqları yetişdirmək üçün ən yaxşı məşqçi Vaqif Sadıqovdur. O, Foqtsdan da çox bilir".

❑ **Hazırladı: Cavid TURAN**

# Türk əsilli Almaniya vətəndaşının Azərbaycanda üzləşdiyi rəzalət

## Yevlaxda qəza törədən Ömər Mamedovdan 5 min manat rüşvət tələb olunub

**Türk əsilli Almaniya vətəndaşı Ömər Mamedov Azərbaycanda üzləşdiyi rüşvətxorluqdan şikayətçidir. Qəza törətdiyinə görə, avtomobili cərimə meydançasına aparılan Almaniya vətəndaşından 5 min manat tələb olunub. Bu məbləği vermədiyinə görə, avtomobili əlindən alıblar ona qaytarılmır.**

Bu barədə redaksiyamıza müraciət edən Ömər Mamedov şikayətini yuxarı orqanlara çatdırmaq üçün "Yeni Müsavat"dan kömək istəyib.

Şikayətçi baş verən hadisənin təfsilatı haqda bunları deyib: "Mən türk əsilli Almaniya vətəndaşıyam. Hazırda Almaniyada yaşayıram. Bu il oktyabrın 22-də saat 05:00 radələrində Yevlax şəhərinin mərkəzində qəza törətdim. Oradan məni xəstəxanaya apardılar. Başımdan yara almışdım. 6 tikiş qoydular. Səhər saat 9-da polis əməkdaşları xəstəxanaya gələrək, məni yaralı vəziyyətdə bölməyə apardılar. Mən xəstə olduğumu bildirdim. Amma buna məhəl qoymadan məni zorla bölməyə apardılar. Rəis üstümə qışqıraraq nə üçün qəza törətdiyimi soruşdu. Qorxu yaratmaq istədi. Danışacaq durumda deyildim. Dedim ki, qəzada nə zərər olubsa, ödəyərəm. Avtomobilin sığortalı olduğunu bildirdim. Mənimlə insanlığa yaraşmayan hərəkət etdilər. Təhqir olundum. Ardınca müstəntiq Mübariz Quliyev gəldi. O da rəis kimi davrandı. Məni təhqir etdi. Açıqca mənə 5 min manat verməsəm, maşını qaytarmayacaqlarını dedilər. Şahidlərimin olduğunu söylədim. Məndən nə qədər zamanınım olduğunu soruşdular. 5 gün vaxtımın qaldığını və bundan sonra Almaniyaya gedəcəyimi dedim. Bu müddət ərzində 5 min manatı ödəməsəm, maşını verməyəcəklərini açıq şəkildə utanmadan mənə dedilər".

**Şikayətçi Almaniya səfirliyinə müraciət etdiyini bildirdi:** "Almaniya səfirliyinə müraciət etdim. Həmin an konsulluqdan zəng vuraraq, Azərbaycana Almaniya pasportu ilə daxil olduğumu bildirdilər. Bundan sonra tələsik işə başladılar. Sənədlərimi yoxladılar. Dözə bilmədiyimə görə, xəstəxanaya qayıtdım. Hazırda başımda tikişlər var. Sığorta işçiləri gəldilər. Qəza zamanı uçan divarın xərcini çəkəcəyimi söylədim. Xəstəxanaya Hikmət Kərimov adlı polis gələrək dəyən ziyanın məbləğini dedi. Ödəyəcəyimi söylədim. Amma o mənə 845 manat ödəməli olduğumu dedi. Dəhşətə gəldim. Hikmətə "rüşvətdən başqa heç nə bacarmırsınız" dedim. O, "sən polisi təhqir edirsən"- deyə üstümə qışqırdı. Avtomobilə baxış keçirilən zaman dəhşət məni bürüdü. Əsas hissələr sökülmüşdü. Bunun səbəbini soruşdum. Cavab verən olmadı. Xəstəxanada azərbaycanlılardan mənə dəstək olanlar oldu. Hər birinə təşəkkür edirəm. Almaniya səfirliyinə müraciətimdən sonra maşınım qaytarıldı. Başqa avtomobil daşıyan nəqliyyat vasitəsinə yükləyib, Gürcüstan ərazisinə keçirdim. Orada mənə göstərilən münasibətlə sizin ölkədə gördüyüm münasibət arasında görünməmiş fərq var idi. Başıma gələnləri orada danışdım. Eşitdiklərindən dəhşətə gəldilər".

**Ömər Mamedov hüquqlarının pozulması ilə əlaqədar Avropa Məhkəməsinə müraciət edəcəyini söylədi:** "Haqqımın bərpa olunmasını istəyirəm. Avropa Məhkəməsinə müraciət edəcəm. Daha öncədən də burada mənə təzyiqlər olmuşdu. 5 il bu ölkəyə girə bilmədim. 5 ildən sonra gəldiyim zaman heç nəyin dəyişmədiyini gördüm. Rüşvətxorluq və haqsızlıq daha da artıb. Belə yeraltı və yerüstü sərvətləri olan zəngin bir ölkədə bu vəziyyətin yaranması təkcə məni yox, hər kəsi narahat edir. Azərbaycan prezidentinə müraciət edərək başıma gələnlərin araşdırılmasını və həllini xahiş edirəm".

❑ **Cavanşir ABBASLI**











YENİ MÜSAVAT

Son səhifə

N 269 (5978) 1 noyabr 2014



## Arvadıyla dalaşdı, binanı yandırdı, zibilxanadan sağ çıxdı

Kazan şəhərindəki 19 mərtəbəli binada çıxan yanğın zamanı sakinlərdən biri özünü binanın zibil novuna ataraq xilas edilib. Amma kişi zibil borusunda ilişib. Hadisə yerinə gələn yanğınsöndürmə xidməti onu xilas etdikdən sonra bədənində hər hansı ciddi xəsarət olmadığı müəyyənləşdiriblər.

Lenta.ru saytının yazdığına görə, 19 mərtəbəli binanın 16-cı mərtəbəsində yaşayan kişi həyat yoldaşı ilə mübahisə edib, ondan sonra əsəbiləşərək mərtəbələr arasında yerləşən sandıqxanaya gedib və qapını arxadan bağlayaraq orda qalıb. Siqaret çəkən kişi ehtiyatsızlıq nəticəsində yanğına səbəb olub. Yanğından sağ qurtulmaq üçünsə özünü zibilxana novuna atıb və birinci mərtəbəyə qədər o yolla gəlib. Yanğının baş verdiyi binaya gələn yanğınsöndürmə xidməti heç kəsin zərər görmədiyinə əmin olub, ordan getmək istəsələr də, zibilxana novundan gələn səsə görə ayaq saxlayıblar. Kişi xilas edildən sonra heç bir xəsarət almadığı üçün həkimə müraciət etməyib. Amma törətdiyi yanğın hadisəsinə görə polis tərəfindən cəzalandırılacaq.

## Həm vertolyot, həm maşın, həm də təyyarə - üçü birində

Arizonada bir qrup mühəndis vertolyot kimi havaya qalxan, həm təyyarə kimi sürətlə uçan, həm də görünüşü qəribə olsa da adi avtomobil kimi yerdə gedə bilən nəqliyyat vasitəsi düzəldiblər. Hazırlayanlar deyir ki, bu mexanizm hər üç nəqliyyat vasitəsinin ən yaxşı cəhətlərini özündə əks etdirməlidir. Sky Kruzer adlı nəqliyyat vasitəsi havaya vertolyot kimi qalxır. Göyə qalxıb müəyyən sürət yığandan sonra isə vertolyot avtomatik olaraq təyyarəyə çevrilir. Saatda 500 km sürətlə hərəkət edir. Yerə enəndən sonra isə alət qəribə görünüşlü maşına çevrilir. Nəqliyyat vasitəsi 5 nəfərlik sərnişin üçün nəzərdə tutulub. Onun satışa nə zaman çıxarılacağı bilinmir.



## Başı masaya dəydi, kor gözləri açıldı

Yeni Zelandiyada yaşayan qadın 11 yaşından bəri gün işığına həsrətdi. Lakin o, tam təsadüf nəticəsində görmə qabiliyyətini bərpa edib. Qadının başı jurnal masasına dəyəndən sonra o, görməyə başlayıb.

Milli.Az Daily Mail-ə istinadən bildirir ki, Oklend şəhərinin sakini Layza Reydin 11 yaşı olanda onun başındakı bədxassəli şiş qızın görmə sinirini zədələmiş və o, kor qalmışdı.

Amma 24 yaşlı qadının dediyinə görə, bələdçisi olan köpəyi öpmək üçün aşağı əyiləndə başı jurnal masasına təsadüfən dəyib. "Ertəsi gün səhər yuxudan ayılanda qismən görməyə başladığımı anladım. Bunun səbəbini kimsə anlamır, nə baş verdiyini bilmirlər. Həkimlər naəlac qalıblar. Mənsə düşünürəm ki, gözlərimin açılması Tanrının lütfü, onun möcüzəsidir", - Layza deyib.





## Qadın 23 qoyun oğurladı, yataq otağında gizlətdi

Cənubi Afrika polisi maraqlı oğurluq hadisəsinin şahidi olub. 42 yaşlı bir qadın 23 qoyunu oğurlayıb, yataq otağında yerləşdirib. Polis bu hadisədən bir həftə öncə qonşu fermadan 23 qoyunun oğurlandığını aşkarlamışdı. Onlardan 5-i daha sonra tapılsa da, yerdə qalanların taleyi qaranlıq idi. Polislər bildirib ki, qadının yataq otağından tapılan qoyunların əksəriyyəti fermadan oğurlananlardır. Çünki sonuncular işarələndiyi üçün onları müəyyənləşdirmək asan olub. Qoyun oğrusu olan qadın dərhal həbs edilib. Amma qoyunları niyə yataq otağında saxlaması hələ də sirr olaraq qalır. Cənubi Afrikada heyvan oğurluğu geniş yayılmış haldır. Oğruların hədəfi daha çox vəhşi öküz olur.

## Qoroskop




QOÇ - Yaxşı olar ki, saat 13-ə qədər bütün vacib işlərinizi təxirə salasınız. Əks təqdirdə cəhdləriniz boşa çıxacaq. Sonrakı saatlarda isə perspektivli sövdələşmələrin iştirakçısı olacaqsınız.

BUĞA - Ulduzların düzümü maraqlı insanlarla rastlaşma ehtimalınızdan xəbər verir. Amma onların arasında bir neçəsi ovqatınızı aşağı salmağa çalışa bilər. Bu səbəbdən uzaqgörən və dözümlü olun.

ƏKİZLƏR - Göy qübbəsi yalnız ailə-sevgi məsələlərində uğurlara yaxın olacağınızı bildirir. Fəaliyyətdə və ya digər münasibətlərdə isə vəziyyət heç də qənaətbəxş olmayacaq. Səfərə çıxmayın.

XƏRÇƏNG - Təxminən saat 14-ə qədər özünüzü gərgin situasiyalardan qorumağa çalışın. Sonrakı ərəfədə sevindirici xəbər eşidəcəksiniz. Maraqlı təkliflər də gözlənilir.

ŞİR - Daxili tərəddüdləriniz ümumi sabitliyinizi pozmaqdadır. Nəyi, necə edəcəyinizi müəyyənləşdirə bilmirsiniz. Odur ki, həyata açıq gözlə baxın. Enerjinizi daha çox sevgidən alın.

QIZ - Maliyyə problemlərinizin artması ümumi ovqatınızda mənfi çalarlar yaratmaqdadır. Azacıq səbr edin, yaxın vaxtlarda kisəniz ağırlaşacaq. Əsas diqqəti münasibətlərə yönəldin.

TƏRƏZİ - Astroloji göstəricilər yalnız qonaqlıq və səfərlər üçün uğurlu ərəfə olduğunu bildirir. Odur ki, digər işlər barədə baş sındırmağa dəyməz. Sizi gözləyənləri şad edin.

ƏQRƏB - Mövcud problemlərinizi həll etmək üçün kənardan dəstək almalısınız. Əks təqdirdə uğursuzluqla üzləşəcəksiniz. Saat 14-17 aralığı bu baxımdan olduqca əlverişlidir.

OXATAN - Hiss olunur ki, səhhətiniz ürəkaçan deyil. Lakin narahatçılığa əsas yoxdur. Çünki bütün hallarda həkim əlinə düşməyəcəksiniz. Nahardan sonra şad xəbər eşidəcəyinizə inanın.

OĞLAQ - Qarşınızda füsunkar bir təqvim var. Bəxtinizə inanırsınızsa risk etməyə dəyər. Çünki gözlənilməz sürprizlər yolunuzu gözləyir. İstənilən ikitərəfli əməkdaşlıq uğurludur.

SUTÖKƏN - Dünəndən mənfi enerjili Ay bürcünüzdə olduğundan fəaliyyətinizdə bəzi neqativliklər ola bilər. Əzm göstərin ki, nəticə uğurlu olsun. Axşam ürəyinizə yaxın simsarlarınıza baş çəkin.

BALIQLAR - İxtiyarınızda olduqca gərgin bir gün durur. Bəri başdan bütün vacib işlərinizi təxirə salın. Münaqişələrə həvəs göstərməyin, neytral olmağa çalışın. Bəxtinizdə pul da var.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

## Maşınını 27 min şokaladla bəzədi



Audi firması bir konfet firması ilə birlikdə həyata keçirdiyi layihə nəticəsində ortaya maraqlı bir nəticə qoyub. Belə ki, Audi markalı, TT Coupe modeli olan maşını 27 min şokaladla bəzəyiblər. Görənlər isə bu "dadlı maşın"ı sürməkdən daha çox yeməyin maraqlı ola biləcəyini deyib. Xatırladaq ki, bundan öncə də bənzər aksiyalar olub. Məsələn, bir Volkswagen sahibi maşınını tamamilə meşə ağacı ilə bəzəyərək, cəlbedici bir dizayn əldə edib. Mercedes CLS sahibi olan bir xanım isə maşınını Svarovski brilyantı ilə bəzəyərək böyük səs-küy yaratmışdı.

Səhifəni hazırladı: SELCAN

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Elşad MƏMMƏDLİ

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Lisenziya N: B 114
SAYI: 5.600